QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 093 (5813) **23 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymıəti 40 qəpik**

# Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb

*Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib*



Səh 2

6

**"Marca": Azərbaycan Mxitaryanın təhlükəsizliyinə zəmanət verə bilər**


MARCA

Fútbol Internacional • El conflicto con Armenia le deja sin final de Europa League

"Azerbaiyán podía garantizar la seguridad de Mkhitaryan"

Mkhitaryan, con el Arsenal. AFP

• Mkhitaryan finalmente no jugará la final

7

**KİVDF-nin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi iləbirgə keçirdiyi yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb**



8

**Azərbaycan-Gürcüstan sərhədlərinin delimitasiyası ilə bağlı iclas keçiriləcək**



# Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb

## *Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib*






***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 22-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi. Prezident İlham Əliyevin birbaşa göstərişlərinə uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən keçmiş "Sovetski" adlanan ərazidə abadlıq və yenidənqurma işlərinə 2013-cü ilin noyabr ayında start verilib və işlər mərhələlərlə icra olunmaqdadır. Dövlətimizin başçısı və birinci xanım buradan paytaxtın mənzərəsini seyr etdilər.

Ərazi orijinal layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb, burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıb.

Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın ən mühüm xüsusiyyəti Nəriman Nərimanov prospektindən Heydər Əliyev Sarayınadək olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanının yaradılmasıdır. Layihənin əsas məqsədi şəhərin simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət etməkdir.

Dövlətimizin başçısına Hüseyn Cavid parkı-Nərimanov prospekti ilə bağlantı yolu və Cavanşir yol ötürücüsünün yerində inşa olunacaq yeni eyni səviyyəli yol qovşağının tikintisi layihəsi barədə də məlumat verildi.

Mərkəzi Parkın ərazisində 2 kafe də fəaliyyət göstərəcək. Bu istirahət məkanında insanların rahat hərəkətini təmin etmək məqsədilə yeraltı və yerüstü piyada keçidləri istifadəyə verilib. Bu keçidlər əsasən avtomobillərin intensiv hərəkət etdiyi Nəriman Nərimanov, Mirzəağa Əliyev və Abdulla Şaiq küçələrinin kəsişmələrində inşa olunub. Ərazidə bütün yaş qruplarından olan insanlar üçün 7 istirahət və oyun meydançası yaradılıb. Ərazidə böyüklər üçün şahmat, nərd və idman qurğuları, balacalar üçün yelləncəklər, futbol meydançası salınıb.

**Ardı Səh. 3**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1575-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1554-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Azərbaycan Respublikasının 1992-ci il 27 may tarixli 142 nömrəli Qanununun ləğvi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1546-VQ nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1533-VQD nömrəli Qanununun tətbiqi Fərman imzalayıb.

# Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb

## *Prezident İlham Əliyev Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak edib*





**Əvvəli-Səh-2**

Görülən işlər çərçivəsində Təzəpir məscidinin qarşısındakı bağdan məscidə əlavə giriş imkanı da olacaq. Həmçinin Füzuli meydanı ətrafındakı ərazi yenidən qurulub, burada əhalinin təhlükəsiz hərəkəti üçün piyada keçidinə yeni giriş yaradılıb. Parkın ərazisində ümumilikdə 9 fəvvarə tikilib. İstirahət parkında müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıb.

Ərazisi 20 hektar olan parkın 14 hektarında yaşıllıq salınıb. Burada 2100-dən çox 19 növ ağac və 137 mindən artıq gül və kol bitkiləri əkilib. Parkın yaşıllaşdırma işləri aparılarkən flora və iqlim mühiti təhlil edilərək əraziyə uyğun bitki və ağaclara üstünlük verilib. Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasında ilin bütün fəsilləri nəzərə alınıb. Parkda yaşıllıqları suvarmaq üçün müasir sistemlərə uyğun olaraq 6,5 kilometrdən çox sahədə damcılama üsulu tətbiq edilib. Bundan başqa, Mərkəzi Parkın ərazisində drenaj xətlər də çəkilib. Ümumilikdə Mərkəzi Parkın inşası ilə Füzuli meydanının ətraf ərazilərində Bakının "ağciyəri" hesab olunan yeni yaşıllıq zolağı salınmaqla Prezident İlham Əliyevin "Bakı şəhərinin Yasamal rayonu ərazisində Füzuli meydanının ətrafındakı yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq işlərinin aparılması ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 4 avqust tarixli, "Təzəpir məscidi kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında" 2016-cı il 5 avqust tarixli sərəncamlarının icrası olaraq, "Təzəpir məscidi kompleksini ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işləri" layihəsinin II mərhələsi tam yekunlaşdırılıb, vətəndaşlarımızın istirahəti və dincəlməsi üçün istifadəyə verilib.

Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıya Şollar su kəmərinin çəkilişi ilə əlaqədar şəhərin müxtəlif məhəllələrində tikilən və yerli sakinlər arasında "Qüllə" kimi tanınan su qülləleri və quyuları aşkarlanaraq bərpa edilib. Həmin su quyularından bu istirahət məkanında aparılan suvarma işlərində istifadə olunur.

Parkın ərazisində Mirzəağa Əliyev küçəsi və Təzəpir məscidi arasında müasir standartlara cavab verən 347 yerlik yeraltı avtomobil dayanacağı tikilib. Dayanacaq təbii havalandırma, müasir işıqlandırma, təhlükəsizlik kameraları ilə təchiz edilib.

Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, paytaxtın qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Bütün bunlar Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayırlar. Yeni park, istirahət məkanı və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması bu məsələdə mühüm rola malikdir. Yeni salınan bu park da Bakının simasının daha da gözəlləşməsi baxımından mühüm rol oynayır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını verdi. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli abidəsinin önündə sakinlərlə görüşüb söhbət etdilər. Dövlətimizin başçısı və xanımı vətəndaşların problemləri ilə tanış oldular. Bildirildi ki, sakinlərin müraciət etdiyi problemlərlə bağlı məsələlər yaxın zamanda operativ şəkildə həll olunacaq. Sonda xatirə şəkli çəkdirildi.







# Qafqaz zubrları Azərbaycan təbiətinə qaytarılır









***IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən "Zubrların Azərbaycana reintroduksiyası" proqramı çərçivəsində ölkəyə gətirilmiş zubrların mayın 21-də Şahdağ Milli Parkının İsmayıllı bölməsinə aid olan hissəsində onlar üçün yaradılmış xüsusi əraziyə buraxılması mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və digər qonaqlar iştirak ediblər.

Vaxtilə ölkəmizdə nəsli kəsilmiş vəhşi öküz - Qafqaz zubru növündən olan 8 baş heyvan mayın 16-da Fransa və Belçika zooparklarından Azərbaycana gətirilib. Onlar üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində xüsusi ərazi yaradılıb. Heyvanlar bir müddət bu ərazidə adaptasiya dövrü keçdikdən sonra Şahdağ Milli Parkına buraxılacaq. Əraziyə bu il daha 12 baş zubrun gətirilməsi də nəzərdə tutulur.

Yerli sakinlər və məktəblilər də zubrlara xüsusi maraq göstərərək tədbirə qoşulub, nəsli tükənmək təhlükəsi altında olan növlərin bərpası istiqamətində aparılan işlərlə tanış olub və öz dəstəklərini nümayiş etdiriblər. Eyni zamanda, tədbirə qatılan yerli gənc təbiətsevərlərə zubrların Azərbaycanda tarixi, onların təbiətdə rolu və mühafizəsi haqqında mühazirələr təşkil olunub.

Zubrlar vaxtilə Avrasiyada çox geniş arealda yayılsa da, ötən əsrin əvvəllərində vəhşi təbiətdə nəsli, demək olar ki, kəsilib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Hazırda dünyada mövcud olan zubrların böyük əksəriyyəti zooparklarda artırılıb və bu yolla növün bərpasına yönəlmiş səylər davam etdirilir. Vəhşi öküzlər güclü, cüssəli heyvanlardır və qədim zamanlardan insanlar tərəfindən güc rəmzi kimi qəbul olunub.

IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyi ilə birgə ölkəmizdə nadir növlər olan Qafqaz bəbiri, ceyran və zubraların populyasiyasının bərpası istiqamətində uğurlu layihələr icra edir.

Zubrların Azərbaycanda biomüxtəlifliyinin daha da zənginləşdirilməsi və meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq layihənin təşkilatçıları ölkəmizin şimal bölgələrində yaşayan əhalini və ümumiyyətlə respublika ictimaiyyətini Qafqaz zubrlarının təbiətimizə qaytarılması, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işinə dəstək olmağa çağırırlar.

# Dövlət başçısının regionlara hər səfəri xalqa xidmətin təzahürüdür

*İlham Əliyev: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və sosial sahə prioritet sahədir"*



***Davamlı iqtisadi inkişaf, yüksək rifah dövlət siyasətinin əsasını təşkil edir. Dövlətimizin başçısı İlham Əliyevin bütün çıxışlarının əsasında bu tezis dayanır ki, həyata keçirilən siyasətin təməlində vətəndaş amili dayanır. Ən mühüm məsələ isə, Prezident İlham Əliyevin, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə tədbirlər planını təsdiqləməsi, Prezidentin Ehtiyat Fondundan vəsaitlərin ayrılması və s. kimi mühüm tədbirlər həm ölkənin hərtərəfli inkişafına, həm də xalqın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən real addımlardır.***



Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Qobustan rayonuna səfəri də bu tərkibdəndir. Səfər çərçivəsində bir sıra mühüm sosial obyektlərin açılışında iştirak edən dövlətimizin başçısının ictimaiyyət nümayəndələri ilə görüşündə göstərdiyi səmimiyyət diqqətdən kənarda qala bilməz. Bu səmimiyyət, bir daha belə bir reallığa işıq saldı ki, Cənab İlham Əliyev hər kəsin Prezidentidir, xalqa xidmət missiyasını yüksək səviyyədə, layiqincə yerinə yetirməklə, daim çıxışlarında qarşıya qoyduğu bu tapşırığın - "Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir" - real həyatda ifadəsidir. Rayon sakinlərinin bildirdiyi kimi, Prezidentin vətəndaşlarla bir yerdə olması, onlara arxalanması, onlarla ünsiyyət yaratması, arzu və təkliflərinə, istəklərinə vaxtında cavab verməsi onları sevindirir. Məhz bunun nəticəsidir ki, son on beş ildə həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır. Təkcə, onu demək kifayətdir ki, ötən illər ərzində Azərbaycanda həyata keçirilən uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində iqtisadiyyatımız dəfələrlə artmış, ölkənin ümumi valyuta ehtiyatları çoxalmışdır.

### Verilən vədlər, real nəticələr...

Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyi əsas amil hesab edir.

Belə ki, sözügedən səfər çərçivəsində Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qobustan regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin açılışı zamanı bildirib ki, xalçaçılıq elə sənətdir ki, Azərbaycan xalqının istedadını dünyaya göstərir: "Azərbaycan öz xalçalarını dünya miqyasında daha geniş şəkildə təqdim edəcək. "Xalçaçılıq bizim qədim sənətimizdir və əsrlər boyu biz bu sənəti yaşadırıq. Çox yaxşı haldır ki, bu sənət nəsildən-nəslə ötürülür. Burada təcrübəli xalçaçılar, gənclər işləyirlər. Əminəm, gənclər də bu işə böyük maraqla, həvəslə qoşulacaqlar ki, biz bu sənəti bundan sonra da əsrlər boyu yaşadaq və Azərbaycan öz xalçaçılıq sənətini dünyaya təqdim etsin. Bu, iş yerləri, qeyri-neft sektorunun inkişafı və ixracyönümlü məhsulun istehsalı deməkdir. Çünki bu gün ölkəmizin ümumi iqtisadi inkişafı qeyri-neft sektorunun inkişafı ilə sıx bağlıdır. İxracyönümlü məhsulların istehsalı bu gün prioritet məsələlərdən biridir".

### Yüksək standartlara cavab verən müasir tibb ocağı

Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Qobustana səfəri çərçivəsində rayon mərkəzi xəstəxanasının açılışı zamanı ölkə başçısı bildirib ki, Qobustan rayonunda da müasir tibb ocağı yaradılıb və ən yüksək standartlara cavab verir: "Ölkəmizin hər bir yerində yeni xəstəxanalar tikilir. Son illər ərzində 640-dan çox müasir tibb müəssisəsi yaradılıb. Bunun əsas məqsədi vətəndaşlara xidmət etməkdir. Burada quraşdırılan avadanlıq, yaradılan şərait ən yüksək standartlara cavab verir. Ən qabaqcıl ölkələrdəki xəstəxanalarda hansı müasir avadanlıq varsa, burada da var. Əsas məsələ ondadır ki, xəstələrə burada çox gözəl xidmət və qayğı göstərilməlidir. Əminəm ki, siz bunu təmin edəcəksiniz. Mənə verilən məlumata görə, burada həkimlər, tibb heyəti üçün 70-dən çox iş yeri yaradılıb. Yəni bu xəstəxananın açılması bir daha bizim uğurlu siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və sosial sahə prioritet sahədir".

Dövlət başçısı, həmçinin, bu il altı milyona yaxın insanın dövlət xətti ilə müayinədən keçəcəyini də bildiridi: "Biz bu proqramı bir neçə ildir ki, uğurla icra edirik. Hesab edirəm ki, dünya miqyasında bu, artıq özünü tam doğrultmuş bir təcrübədir. Dövlət xəstəxanalar, diaqnostika mərkəzləri tikir, vətəndaşlara imkan yaradır ki, pulsuz müayinədən keçsinlər. Həm paytaxtda, həm böyük şəhərlərdə, həm də əhalisi o qədər də böyük olmayan rayonlarda bütün digər sosial obyektlər yaradılır. Qobustan rayonunun əhalisi təqribən 50 minə yaxındır. Şəhərdə 7 min insan yaşayır. Baxın, rayonun inkişafı, infrastrukturun yaradılması, yolların çəkilməsi ilə bağlı nə qədər böyük işlər görülür. Hər bir bölgədə bütün sahələrdə inkişaf, müasir yanaşma olmalıdır, vətəndaşlara qayğı və diqqət göstərilməlidir. Bu gün biz bunun bariz nümunəsinin şahidiyik. Bu xəstəxana həm xarici görünüşü, həm də daxili tərtibatı baxımından göz oxşayır".

Səfər çərçivəsində, dövlət başçısı, həmçinin, 5 min nəfərin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Qobustan-Poladlı avtomobil yolunun açılışını da edib.

### Mükəmməl iqtisadi təhlillərə söykənən iqtisadi proqram

Bir sözlə, güclü iqtisadi təhlillərə söykənən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarını Prezident İlham Əliyevin çox mükəmməl iqtisadi təhlillərinə və elmi əsaslara söykənən iqtisadi proqram adlandırmaq olar. Ölkə başçısının son 16 il ərzində bölgələrə davamlı şəkildə səfərlər etməsi və hər dəfə yerli sakinlərlə görüşü, bir daha təsdiq edir ki, ölkə vətəndaşları öz Prezidentinə daima inanır və onları daha əzmlə çalışmağa sövq edir. Cənab Prezident daim vətəndaşlarla açıq şəkildə təmas quraraq onların görmək istədikləri, arzu etdikləri məsələlərin həyata keçirilməsi üçün bütün tədbirlərin görüləcəyinə əmin etməklə, insanlarda dövlətə olan dərin inamı daha da möhkəmləndirmiş olur. Prezident İlham Əliyev həmişə ölkə vətəndaşlarının daha yaxşı yaşamaları, hər bir sosial infrasturktur və kommunal xidmət növləri ilə təmin olunmaları, rahat istirahət etmələri üçün lazım olan bütün şəraitin yaradılacağını bildirir. Dövlət başçısı ölkəmizdə aparılan sürətli quruculuq işlərinin hər bir rayonda geniş vüsət alacağını dəfələrlə diqqətə çatdırıb. "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyən Prezident İlham Əliyev hər bir rayonda insanların normal yaşaması, ölkəmizin sosial-iqtisadi tərəqqisi üçün dövlət siyasətinin gücləndiriləcəyini bəyan edib: "Bu, bizim siyasətimizin konkret nəticələridir. Bizim siyasətimiz sosialyönümlüdür. Bir daha demək istəyirəm ki, sosial siyasətin əsas məqsədi Azərbaycanı gücləndirmək, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaqdır".

Göründüyü kimi, Prezident İlham Əliyevin rayonlara sistemli və davamlı xarakter alan səfərləri regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində müstəsna əhəmiyyət kəsb edir. Bütün ölkə üzrə aparılan yenidənqurma işlərinin və inkişaf proqramlarının həyata keçirilməsinə dövlət büdcəsindən ayrılan xərclərlə yanaşı, Prezidentin Ehtiyat Fondundan da əlavə maliyyə vəsaitləri yönəldilir ki, bu da insanların rahatlığına və firavan yaşamalarına səbəb olur.

**RƏFİQƏ KAMALQIZI**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

23 may 2019-cu il

# Tanınmış elm xadimi İradə Hüseynova ilə görüş keçirilib





Dünən Bakı Dövlət Universitetində "Qafqaz xalqları tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar müəllimi, YAP Siyasi Şurasının üzvü, görkəmli elm xadimi İradə Mehtiqulu qızı Hüseynovanın həyat yoluna, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyətinə həsr olunmuş görüş keçirilib. Görüş, həmçinin, BDU-nun tarix fakültəsinin 100-cü ildönümünə də təsadüf edir.

BDU-nun tarix fakültəsinin müəllim və tələbə heyətinin, eyni zamanda, həmin fakültəni bitirən tanınmış elm və siyasət adamlarının iştirakı ilə baş tutan görüşü açıq elan edən universitetin tarix fükültəsinin dekan əvəzi, professor İbrahim Zeynalov İradə Hüseynovanın Azərbaycan elminə, xüsusilə, tarix elminə verdiyi töhfələrindən, ictimai-siyasi fəaliyyətindən, elmi yaradıcılığından bəhs edərək, onun bu gün də yorulmaz fəaliyyət göstərdiyini vurğulayıb və belə bir görüşün BDU-nin tarix fakültəsinin 100-cü ildönümü ərəfəsində keçirilməsini mühüm hadisə kimi qiymətləndirib. O da, bildirilib ki, İ.Hüseynova görkəmli dövlət və siyasi xadim, Ümummilli Lider Heydər Əliyev haqqında "Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmləndirilməsində Heydər Əliyevin rolu" adlı ilk doktorluq dissertasiyasının müəllifidir.

Sonra söz İ.Hüseynovaya verilib. Tələbə və gənclik illərindən, əmək və elmi, eyni zamanda, YAP sıralarındakı fəaliyyətindən danışan professor geridə qoyduğu illərinin hədər getmədiyini qeyd edərək, əldə etdiyi hər bir nailiyyətdən qürur və fərəh hissi keçirdiyini bildirib. Belə ki, onun gənc yaşlarında və sonrakı illərdə də Ulu Öndərlə görüşü həyatında silinməz xatirələr həkk edib.

Tədbirdə çıxış edən tanınmış elm adamları, tələbə və müəllimlər, ictimai-siyasi xadimlər qeyd ediblər ki, professor İ.Hüseynova öz üzərində usanmadan işləyən, işinə böyük məsuliyyətlə yanaşan, ədalətli, obyektiv və səmimi insandır. O, böyük təcrübəyə malik, yüksək biliyi, mənəvi-əxlaqi keyfiyyətləri, zəngin intellektual potensialı, peşəkarlığı, vətənpərvərliyi, milli təəssübkeşliyi ilə seçilən tanınmış ictimai xadim, təhsil təşkilatçısı, dəyərli ziyalı, gözəl pedaqoq və görkəmli alim kimi Azərbaycan cəmiyyətində və elmində böyük hörmət və nüfuz qazanmışdır.

Onlar İ.Hüseynovanın elmi, siyasi yaradıcılığının hədsiz dərəcədə tarixi araşdırmaçılıq elminə, o cümlədən, Qafqaz xalqlarının tanıdılmasına töhfələr verdiyini deyərək, onun həm də elmin və təhsilin inkişafında yorulmaz fəaliyyət göstərdiyini vurğulayıblar.

Görüşdə İradə xanımın bədii yaradıcılığından da bəhs edən videorolik nümayiş etdirilib. Sonda isə, professor İ.Hüseynovanın elmi əsərləri görüş iştirakçılarına hədiyyə olaraq təqdim edilib, tələbə və müəllim heyəti ilə xatirə fotoları çəkilib.

**Rövşən RƏSULOV**



# Naxçıvanda iftar süfrəsi açılıb



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "Orucluq mərasimləri hər il cəmiyyətimizdə humanizmin, birlik və bərabərliyin təntənəsinə çevrilir".

Muxtar respublikada da Ramazan ayı, orucluq mərasimləri mənəvi dəyərlərimizə uyğun keçirilir. Bu müqəddəs ayın zənginlikləri yaşadılır, insanlar saf dini ideyalar ətrafında həmrəy olurlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 21-də Naxçıvan şəhərində iftar süfrəsi açılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iftar mərasimində çıxış edərək deyib: Xalqımız həmişə milli-mənəvi dəyərlərinə sadiqliyi ilə seçilmişdir. İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən biri olan Naxçıvanda milli-dini mərasimlər, o cümlədən, Ramazan ayı hər il böyük təntənə ilə keçirilir. Bu müqəddəs ayda xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, vətən uğrunda canlarından keçən qəhrəmanların xatirəsi dərin ehtiramla yad olunur.

Ali Məclisin Sədri deyib: Müqəddəs kitabımız olan "Qurani-Kərim"in nazil olduğu mübarək Ramazan ayı insanların qəlbini nurlandıran, onları sülhə, həmrəyliyə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda xeyirxah əməllərin, mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Mübarək Ramazan günlərində gözəl ənənəyə çevrilən iftar süfrəsinin təşkil edilməsi də cəmiyyətimizin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsidir.

Ali Məclisin Sədri əziz gündə xeyirxah niyyətlərlə həmrəy olduğunu bildirib, bütün dua və diləklərin qəbul olunmasını arzulayıb. Mərasimdə "Qurani-Kərim"dən ayələr oxunub, dualar edilib. Hərbi hospitalda müalicə alan xəstələr üçün də iftar süfrəsi açılıb.

# "Marca": Azərbaycan Mxitaryanın təhlükəsizliyinə zəmanət verə bilər

***İspaniyada çıxan "Marca" gündəlik idman qəzetinin elektron versiyasında (Marca.com) "Azərbaycan Mxitaryanın təhlükəsizliyinə zəmanət verə bilər" sərlövhəli məqalə yerləşdirilib.***

AZƏRTAC xəbər verir ki, məqalə Böyük Britaniyanın "Arsenal" klubunun yarımmüdafiəçisi Henrix Mxitaryanın Bakıda Avropa Liqasının finalında iştirak etməyəcəyi barədə bu klubun bəyanatına cavabdır. Məqalədə deyilir ki, həm UEFA, həm də Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) bütün futbolçuların, o cümlədən "Arsenal"ın oyunçusu H.Mxitaryanın təhlükəsizliyinin təmin ediləcəyinə dair müvafiq bəyanatlar veriblər.

"Marca.com" AFFA-nın baş katibi Elxan Məmmədovla müsahibəsini təqdim edib. E.Məmmədov təsdiq edib ki, AFFA ilə UEFA-nın Mxitaryanın təhlükəsizliyinə zəmanət verilməsi barədə müvafiq məktubu "Arsenal"a göndərilib. AFFA-nın baş katibi deyib: "Biz həmişə siyasəti futboldan ayırırıq. Biz çox məyusuq, çünki Mxitaryanın təhlükəsizliyinin təmin edilməsi üçün bizim tərəfimizdən bütün tədbirlər görülüb. Buna görə də narahatlığa heç bir əsas yoxdur. Bu zəmanət Azərbaycan tərəfindən verilib. Yeri gəlmişkən, son on ildə çoxlu sayda erməni idmançı Azərbaycanda keçirilən bir neçə beynəlxalq turnirdə heç bir problemlə üzləşmədən iştirak edib. Düşünürəm ki, Mxitaryanın iştirak etməməsi bu möhtəşəm oyunun nə keyfiyyətinə, nə də cəlbediciliyinə təsir göstərəcək".

Nəşr Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadənin sözlərini də sitat gətirib: "Avropa Liqasının finalı böyük idman hadisəsidir. Əgər kimsə onu siyasi tədbirə çevirmək istəyirsə, bu başqa məsələ. Amma Mxitaryana siyasətçi olduğuna görə deyil, idmançı olduğuna görə pul ödəyirlər. Biz bütün siyasi məsələləri bir kənara qoymalıyıq".

"Marca.com" diqqətə çatdırır ki, Azərbaycan Ermənistandan idmançıların gəlməsinə icazə verir, lakin ermənilərə və Dağlıq Qarabağda olan şəxslərə viza vermir. Henrix Mxitaryan 2016-cı ildə Ermənistanın ərazi iddialarını müdafiə edən bir neçə təşkilatı maliyyələşdirib.


MARCA
Accede Menú
Fútbol Internacional • El conflicto con Armenia le deja sin final de Europa League
"Azerbaiyán podía garantizar la seguridad de Mkhitaryan"
Mkhitaryan, con el Arsenal. AFP
• Mkhitaryan finalmente no jugará la final

"Marca.com" qeyd edir ki, 2015-ci ildə Bakıda birinci Avropa Oyunları təşkil edilib. Oyunlarda 25 erməni idmançı iştirak edib. Nəşr belə bir faktı diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev erməni idmançılardan birinin mükafatlandırılması zamanı tribunalardan gələn fit səslərini şəxsən dayandırıb və mükafat almış erməni idmançının alqışlanmasını xahiş edib.

# KİVDF-nin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb

***Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçirdiyi “Prezident İlham Əliyevin sosial islahatlar paketi: əhalinin rifahı naminə yeni inqilabi addımlar” mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.***




AZƏRTAC xəbər verir ki, tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, fondun icraçı direktoru Vüqar Səfərli, nazirliyin rəhbər vəzifəli şəxsləri, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və qalib jurnalistlər iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan Sahil Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu sosial islahatlar proqramının yeni nəticələri kimi əhalinin rifahının yaxşılaşdırılması istiqamətində inqilabi addımların atıldığını vurğulayıb. Nazir bildirib ki, cari ilin ötən dövründə minimum əməkhaqqının orta hesabla 40 faiz artırılması 600 min, pensiyanın minimum məbləğinin orta hesabla 40 faiz artırılması 233 min, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılması 600 minədək vətəndaşı əhatə edib. Həmçinin 500 mindən çox məcburi köçkünün müavinəti 50 faiz artırılıb, 110 minədək tələbənin təqaüdlərində əhəmiyyətli artımlar edilib. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli Fərmanı isə 800 mindən çox vətəndaşın problemli kreditlərinin həllinə, bununla onların sosial vəziyyətinin yaxşılaşmasına imkan verib. Bu və digər sosial əhəmiyyətə malik tədbirlər ümumilikdə 3 milyon insanın rifahına mühüm dəstək olub: “Prezident cənab İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin və ilk “DOST” mərkəzinin inzibati binasının açılış mərasimindəki çıxışı zamanı bu istiqamətdə aparılan işlərin davamlı xarakter daşıdığını, minimum əməkhaqqının, minimum pensiyanın artırılmasının gündəlikdə olduğunu bir daha vurğulayıb”.

Nazir, həmçinin əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə idarəçilik və əhaliyə xidmətlərin innovativ həllərin tətbiqi üzərində qurulması istiqamətində köklü islahatların aparıldığını qeyd edib. O, pensiya təyinatından başlayaraq dövlət sosial xidmətlərinin proaktiv formada təşkili işlərinə başlandıldığını, bu işlərin məcrasının genişləndiyini, yaradılan DOST Agentliyinin və ilk “DOST” mərkəzinin ölkəmizin sosial sahədə yeni bir uğurlu təcrübəsi olduğunu, Bakı və ölkəmizin bölgələri üzrə 31 “DOST” mərkəzinin qurulmasının nəzərdə tutulduğunu deyib.

Sahil Babayev onu da bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 2 avqust tarixli Sərəncamı ilə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün əlavə olaraq 20 milyon manat vəsaitin ayrılması nəticəsində 2018-ci ildə həmin kateqoriyalardan olan insanlara nəzərdə tutulduğundan (207 mənzil) 3 dəfə çox - 626 mənzilin təqdim edilməsinə səbəb olub. Nazir cari ildə bu kateqoriyadan olan 800-dək vətəndaşın dövlət hesabına mənzillə təmin olunacağını diqqətə çatdırıb.

Qeyri-rəsmi məşğulluqla mübarizə sahəsində tədbirlərdən söz açan Sahil Babayev məqsədyönlü stimullaşdırıcı tədbirlər nəticəsində cari ilin ötən dövründə əmək müqaviləsi ilə işləyənlərin sayının 91 min nəfərə yaxın artdığını deyib.

Çıxışını davam etdirən Sahil Babayev bildirib ki, bu gün nəticələri açıqlanan müsabiqə də ölkədə sosial inkişaf sahəsində əldə olunan bu irəliləyişlərin, islahatların uğurlu nəticələri barədə geniş ictimai məlumatlandırmanın təmin olunmasında peşəkar jurnalist əməyinin stimullaşdırılmasına xidmət edib. Ümumilikdə müvafiq fəaliyyət sahələrində aparılan islahatlar, görülən işlər barədə cəmiyyətin ətraflı məlumatlandırılmasında media ilə fəal əməkdaşlıq qurulub.

Aidiyyəti mövzularda ictimai məlumatlandırmanın genişləndirilməsi, jurnalist peşəkarlığının artırılması, maraq və əməyinin stimullaşdırılması üçün fondla əməkdaşlıq şəraitində fərdi jurnalist yazıları müsabiqələrinin təşkili də diqqətdə saxlanılır: “Müsbət haldır ki, KİV nümayəndələri bu müsabiqələrdə fəal iştirak edirlər. Qarşıdakı dövrdə də fondla birgə belə müsabiqələrin keçirilməsi davam etdiriləcək”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli tədbir iştirakçılarını salamlayaraq qısa müddətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə sayca üçüncü fərdi jurnalist yazıları müsabiqəsinin təşkilini nazirliyin fəal və məhsuldar fəaliyyəti, habelə mediaya açıq qurum olması ilə əlaqələndirib. V.Səfərli xüsusi vurğulayıb ki, nazirlik son aylarda fəaliyyətini tamamilə yeni, çevik və şəffaf mexanizmlər üzərində quraraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial islahatların, bu məqsədlə imzalanmış fərman və sərəncamların icrasında yaxından iştirak edir.

V.Səfərli qeyd edib ki, nazirliyin həyata keçirdiyi islahatların ictimaiyyətə dolğun və obyektiv şəkildə çatdırılmasında medianın rolu və xidmətləri müstəsnadır. İcraçı direktor, bu baxımdan keçirilən birgə müsabiqələrin əhəmiyyətini xüsusi vurğulayıb. V.Səfərli 2019-cu il aprelin 3-dən mayın 1-dək davam edən fərdi jurnalist yazıları müsabiqəsinə 20 KİV-dən 31 yazının təqdim olunduğunu, yazıların fondun və nazirliyin ekspertləri tərəfindən qiymətləndirildiyini bildirib. İcraçı direktor müsabiqənin yekunlarına əsasən, 6 nəfərin əsas, 5 nəfərin həvəsləndirici mükafatlara layiq görüldüyünü diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın sədri Umud Mirzəyev, “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev nazirliklə media arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edən belə intensiv görüşlərin və birgə yazı müsabiqələrinin əhəmiyyətindən söz açıblar.

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim olunub. Tədbiri yekunlaşdıran nazir Sahil Babayev media ilə əlaqələrinin inkişafına verdiyi töhfəyə görə fondun rəhbərliyinə, eləcə də müsabiqədə iştirak edən jurnalistlərə təşəkkürünü bildirərək belə müştərək layihələrin gələcəkdə də davam etdiriləcəyini vurğulayıb.

# Milli Məclisdə komitə iclası keçirilib



***Mayın 22-də Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. SİA xəbər verir ki, Milli Məclis sədrinin birinci müavini, komitənin sədri Ziyafət Əsgərov gündəlikdəki məsələlər barədə məlumat verib. Bildirilib ki, gündəliyə üç məsələ daxildir. Əvvəlcə Ziyafət Əsgərov “Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirib ki, dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.***

Sonra “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə” qanun layihəsi təqdim olunub. Qeyd edilib ki, Saziş 2019-cu il aprelin 7-də Ər-Riyad şəhərində imzalanıb. Bu Saziş ölkələrimiz arasında hüquqi bazanın genişləndirilməsinə xidmət edir. “Fövqəladə vəziyyət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən Z.Əsgərov deyib ki, dəyişikliklər redaktə xarakterlidir. Müzakirələrdən sonra qanun layihələri plenar iclasa tövsiyyə olunub.

# Radikalların heç bir niyyəti baş tutmayacaq



## Milli Məclisin deputatı Elman Nəsirovun yap.org.az-a müsahibəsi

***-Elman müəllim, hazırda aktual mövzulardan biri xaricdə yaşayan bəzi azərbaycanlıların müəyyən etiraflar etməsi, ölkəmizə qarşı radikal mövqedən geri çəkilməsidir. Sizcə, onlar davranışlarında nə qədər səmimidirlər?***

- Xaricdə yaşayan bəzi mühacir azərbaycanlıların davranşları çoxlu suallar doğurur. Onlar bəzən həddindən artıq radikal mövqe seçir. Və heç bir halda, özlərini müxalifət kimi aparmırlar. Ulu Öndər Heydər Əliyevin dediyi kimi hakimiyyətə qarşı müxalifət olmaq olar. Lakin öz dövlətinə və xalqına qarşı müxalifətdə dayanmaq olmaz. Həm də, özünü müxalifətçi kimi təqdim edib söyüş söymək, insanları təhqir etmək şərəf və ləyaqətini təhqir etmək yolverilməzdir. Bu cür davranışlar milli mentalitetmizə də ziddir.

Düşünürəm ki, mühacir həyatı yaşayan azərbaycanlılar obyektiv mövqe ortaya qoymalıdır. Onlar hansısa məsələ ilə bağlı sağlam tənqid edib öz təkliflərini verə bilərlər. Amma Azərbaycan həqiqətlərini təhrif etmək, Avropa ictimai fikrində Azərbaycan haqqında mənfi fikir formalaşdırmaq, ölkəmizin qazandığı uğurlardan kədərlənmək qəbuledilməzdir.

Təbii ki, bu məsələdə müəyyən müsbət tendensiyalar var. Xaricdəki radikal mövqedə dayanan bəzi azərbaycanlıların davranışında obyektivliyə yaxın mövqe yaranması diqqətdən yayınmır. Amma istərdik ki, bu, küll halında olsun, manevr xarakteri daşımasın, onların da Vətəni olan Azərbaycana sevgilərini, diqqətlərini ifadə edən mövqe olsun. Bir çox hallarda görürük ki, onların davranışları ermənilərin dəyirmanına su tökmək anlamı verir. Bir çox hallarda ermənilərdən daha çox erməni olmaq tendensiyasi müşahidə olunur ki, bu da qəbuledilməzdir. Amma bir daha vurğulayıram ki, müəyyən pozitiv davranışlar var. Çox istəyərdik ki, bu tendensiya olaraq qalmasın.

***-Sizcə, bu fəaliyyət Azərbaycanın beynəlxalq nüfuzuna zərər vura bilirmi?***

- Bilirsiniz ki, bugünlərdə Azərbaycan Prezidentinin Belçikaya işgüzar səfəri oldu. Prezident İlham Əliyevin Belçikaya səfəri mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının 10 illik yubileyi münasibətilə ilə reallaşan səfər zamanı dövlətimizin başçısı vacib görüşlər keçirib. Lakin bəzi müxalif qüvvələr ölkəmizin Şərq tərəfdaşlığından imtina etməsinə dair yanlış məlumatlar yaydılar. Təbii ki, əsas məqsəd hər zamankı kimi ölkədə ictimai rəyi çaşdırmaq idi. Amma radikal müxalifətin heç bir niyyəti baş tutmayacaq.

Brüssel səfəri zamanı Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk dövlətimizin başçısı ilə görüşdə Azərbaycanın Avropa enerji təhlükəsizliyi üçün çox böyük önəm kəsb etdiyi qeyd etdi. Ölkə başçısı da Aİ ilə hərtərəfli əməkdaşlığın genişlənməsində maraqlı olduğunu bildirdi. Ölkəmizin Aİ ilə enerji təhlükəsizliyi sahəsinə çox ciddi əməkdaşlığı formalaşıb. 2020-ci ildə Cənub Qaz Dəhlizi işə düşəcək ki, bu da Avropanın meqa layihəsi olaraq Azərbaycan-Aİ münasibətlərinin yeni müstəviyə keçməsinə imkan yaradacaq. Səfər çərçivəsində Donald Tusk iştirakçı dövlətlərin liderlərinin şərəfinə axşam ziyafəti verdi. Həmin ziyafətdə də o Azərbaycanın ölkə başçısından yanında əyləşməyi xahiş etdi. Bunun özü bizim münasibətlərimizin hansı səviyyədə olduğunu və cənab Prezidentimizə göstərilən diqqətin ifadəsidir.

Ümumiyyətlə, Azərbaycan demokratik inkişaf yolunu seçmiş dövlətdir. Bu gün ölkəmizdə 55 siyasi partiya mövcuddur. Belə olan halda mətbuat və söz azadlığı üzərində hansı qadağalardan söhbət gedə bilər? Radikal müxalifətin, eləcə də xaricdə yaşayan bəzi azərbaycanlıların ölkəmiz haqqında mənfi rəy formalaşdırmaq istəyi iflasa məhkumdur.

Azərbaycanda hər zaman sərbəst toplaşma azadlığı var. Amma nəzərə alınmalıdır ki, demokratiya anarxiya, xaos deyil. Qanunlar işləməyən yerdə demokratiya yoxdur. Azərbaycan hüquqi dövlətidir, ölkəmizdə həm sərbəst toplaşma, həm də digər demokratik azadlıqlar təmin edilib. Bu məsələdə Azərbaycan bir çox dünya ölkələri üçün nümunədir. Avropada mitinqlərin dağıdılması üçün atlardan, itlərdən istifadə edildi. Fransanın özündə "sarı jiletli" hərəkatını dağıtmaq üçün polisin necə güc tətbiq etdiyi gözümüzün qarşısındadır. Hesab edirəm ki, radikal müxalifətin bu yanaşmalarının və "canfəşanlığı"nın heç bir əsası yoxdur. Onların heç bir istəkləri baş tutmayacaq. Azərbaycan xalqı bu qüvvələrin əsas niyyətini çox gözəl bilir.

Mövcud reallıqlar fonunda xaricdə yaşayan azərbaycanlılar Vətən sevgisindən irəli gələrək dövlətin mənafeyinə xidmət edən addımlar atılmalıdır. Onlarda milli təəssübkeşlik olmalıdır. Azərbaycana qarşı yalnız ermənilər çirkin niyyətli addımlar ata bilərlər. Amma belə hərəkətlərdən birini Orduxan kimilər etdi. Onlar Brüsseldə elə davranış ortaya qoydular ki, bizim dəyərlərimizə tamamilə ziddir. Amma beləleri azlıqdadır. Xaricdə yaşayan azərbaycanlıların mütləq əksəriyyəti vətənpərvərdir, diasporumuz ölkəmizin təəssübünü çəkir, uğurlarımıza sevinib və paylaşırlar.

Radikallara gəlincə, biz onları ağıla, sağlam məntiqə dəvət edirik. Arzu edirik ki, onlar bir gün papaqlarını qarşılarına qoyub düşünəcəklər ki, qərib ölkədə vətən həsrəti, vətən sevgisi daha böyük olur. Azərbaycan həm də onların Vətənidir. Müxalifət kimi mövcud olub iqtidarı tənqid etmək olar. Amma heç zaman Azərbaycan dövlətinə və xalqına qarşı yalanlar söyləmək olmaz.

***- Dünyada baş verən mürəkkəb, ziddiyyətli proseslər ölkəmizdə milli həmrəyliyin daha da gücləndirilməsini nə dərəcədə zəruri edir?***

-Heç şübhəsiz ki, xaricdə və ölkə daxilində radikal mövqe tutanlar kiminsə əlində alət olduqları üçün istifadə olunub atılacaqlar. İnsan vicdan və insaf hissini itirməməlidir. Mühacirlərin bir qismi doğurdanmı düşünmürlər ki, mürəkkəb bir dünyada yaşayırıq. Rusiyasının xarici işlər naziri Sergey Lavrov belə bir fikir söyləmişdi ki, dünya dəli olub. Və dəli olmuş bir dünyada kiçik dövlət olasan və böyük enerji potensialın ola və bu vəziyyətdə müxtəlif dövlətlərin maraqlarının cəmləşdiyi regionda yerləşəsən. Belə bir şəraitdə elə müdrik siyasət həyata keçirəsən ki, müxtəlif güc mərkəzləri ilə bərabər məsafədə dayanmağı bacarasan. Bu yalnız Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və milli maraqlara əsaslanan siyasət nəticəsində baş verib. Bu bütün uğurlarımızı şərtləndirən əsas amildir.

Radikallar baxsınlar ki, regonda nə qədər mürəkkəb proseslər baş verir. Belə bir vəziyyətdə sabit Azərbaycan var. Onlar xaricdə yaşasalar da, ailələri, qohumları burda yaşayırlar. Yaşadığımız ölkədə əminanamlıq, sabirlik var və bu amillərin təminatçıları var. Təminatçı xalq və onun seçdiyi dövlət başçısı var. Bunu görməyənlər gərək kor olsun.

Onlara müraciətlə deyirəm ki, ağıla üstünlük verin, vicdan hissini itirməyin. Müqayisələr apararaq görün ki, Azərbaycan vətəndaş müharibəsindən vətəndaş həmrəyliyinə və səfərbər olmuş cəmiyyətə gəlmiş bir dövlətdir. Bu adamlar milli təəssübkeşliyi heç zaman unutmamalıdırlar.

# "İntellektual baxımdan Azərbaycan cəmiyyəti yetkinləşir"

"Ümumiyyətlə dövlətin bir adı da ədalətdir. Əlbəttə ki, hazırki mərhələdə sosial ədalətə söykənərək cəmiyyətin, vətəndaşın problemlərinin həlli Azərbaycan dövlətinin vəzifəsidir, borcudur". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib. Millət vəkilinin sözlərinə görə, Azərbaycan dövləti bu vəzifənin öhdəsindən layiqincə gəlir: "Məsələ ondadır ki, sosial sahə daima diqqət tələb edən bir sahədir. Biz olduqca dinamik bir cəmiyyətdə yaşayırıq. Azərbaycan cəmiyyəti inkişaf edir, onun iqtisadiyyatı inkişaf edir, sosial sferası inkişaf edir, sənaye, kənd təsərrüfatı inkişaf edir və intellektual baxımdan Azərbaycan cəmiyyəti yetkinləşir. Bu prosesdə Azərbaycan xalqının sayı artır. Bu o deməkdir ki, yeni iş yerləri açmaq lazımdır, sosial problemləri həll etmək lazımdır. Təbii ki,



əhalinin sayı artdıqca problemlərin də sayı artır. Çox yaxşı haldır ki, Azərbaycan dövləti bütün bu prosesi izləyir, nəzarətdə saxlayır və onu proqnozlaşdırır. Cəmiyyətin inkişafına paralel olaraq onun yarana biləcək mümkün problemlərinin həlli ilə də bağlı vaxtaşırı dövlət proqramları qəbul edir. Azərbaycan dövləti bu prosesə kompleks yanaşır. Çünki biz 2019-cu ildən bu günə qədər həyata keçirilən islahatlardan danışsaq, biz görəcəyik ki, bu təkcə 2019-cu il və yaxud 2018-ci il hadisəsi deyil. Bunun dərin kökləri var. Bu köklər problemə kompleks yanaşmanı özündə ehtiva edir.

Bu nədir? Əlbəttə ki, islahatların aparılması üçün şərtlər formalaşır. Bu şərtləri təmin edən resurslar formalaşır. Təbii ki, bunu həyata keçirmək üçün siyasi iradənin vacibliyi ortaya çıxır. Hazırda biz Azərbaycanda bu üç komponentin bir-birini tamamlayan vəhdətini görürük. İlk növbədə dinamik cəmiyyətin tələblərinə, şərtlərinə uyğun olaraq Azərbaycan iqtisadiyyatı əgər problemlər varsa onları həll etmək üçün mövcud imkanlar təqdim edir".

***Ceyhun Rasimoğlu***

# Azərbaycan-Gürcüstan sərhədlərinin delimitasiyası ilə bağlı iclas keçiriləcək



Azərbaycan və Gürcüstan arasında dövlət sərhədlərinin delimitasiyası ilə bağlı Komissiyanın növbəti iclası cari ilin 23-24 may tarixlərində Bakı şəhərində keçiriləcək. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya bildiriblər ki, iclas Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov ilə Gürcüstanın xarici işlər nazirinin müavini Laşa Darsaliyanın rəhbərliyi ilə təşkil olunacaq.

# Paşinyan hakimlərlə və Qarabağ klanı ilə qarşıdurmada

*Mayın 18-də məhkəmə Koçaryanı azadlığa buraxdıqdan sonra Ermənistanda yeni tələtümlər baş qaldırmağa başlayıb desək, yanılmarıq. Bir zamanlar, qondarma "DQR"-in de-fakto prezidenti vəzifəsini icra edən Koçaryanın bu ərazinin iki liderinin - keçmiş və mövcud rəhbərinin şəxsi zəmanəti altında azadlığa buraxılması erməni baş nazirini özündən çıxarıb. Hətta baş nazirin qıcıqlandığını və narahatlığını inkar etmək də mümkün deyil və bu hadisə ona təsirsiz də ötüşməyib.*



Koçaryanın mühakiməsi olunmasına böyük əhəmiyyət verən N.Paşinyan, cavab olaraq, tərəfdarlarını məhkəmələrin binalarını əhatə etməyə, binaların girişlərini və çıxışlarını blokadaya almağa çağırıb. Bu fakt özü-özlüyündə təsdiq edir ki, erməni baş nazir hadisələrin gedişatı ilə barışmaq niyyətində deyil və mövcud durum onu çox narahat edir. Narahatlıq yaradan ən vacib məsələ, əslində, istər məhkəmə orqanlarının, istərsə də Dağlıq Qarabağa rəhbərlik etmişlərin və edənlərin ona tabe olmamalarıdır. Eyni zamanda yaranmış fikir ayrılığından qorxuya düşdüyü də göz qabağındadır.

### Erməni baş nazirinin davranışı məhkəmə müstəqilliyi üçün qəbuledilməz bir təcavüzdür

Sirr deyil ki, Paşinyan uzun müddətdir məhkəmə orqanlarını əvvəlki hökumətin əmrləri ilə hərəkət etməkdə günahlandırırdı. İndi də hakimin qərarından dərhal sonra sərt tədbirlərə əl atması bəzilərinin diqqətindən yayınmayıb və bu, heç də normal qarşılanmır. Belə ki, çoxları baş naziri ədalət sistemini qeyri-qanuni siyasiləşdirilməkdə günahlandırır. Məsələn, Birmingem Universitetinin siyasi analitiki Gevorg Oskanyan "Twitter"-də yazır ki, baş nazirin davranışı "məhkəmə müstəqilliyi üçün qəbuledilməz bir təcavüzdür".

N.Paşinyanın davranışlarının anormal və qanuna zidd olduğunu təsdiq edən təkcə siyasi analitik deyil. İnsan hüquqları üzrə erməni Ombudsmanı Arman Tatoyan da Paşinyanın müraciətini tənqid edən bəyanatla çıxış edib. "Məhkəmə sistemində, müstəqilliyi də daxil olmaqla, problemlər var, lakin bu problemlər yalnız qanuni yollarla həll olunmalıdır" deyə Tatoyan bəyan edib.

Ola bilsin, erməni baş nazirinin təsiri altında olan hansısa bir kütlə onunla eyni fikirdə, eyni əqidədə olsun. Nümayişlərdən ələ alınan hansısa kütlə bir avantüristin manipulyasının qurbanı kimi onun arzuladığı davranışı da nümayiş etdirə bilər. Amma bu, o demək deyil ki, Paşinyan bundan sonra ağlına nə gəldi edəcək və yenə də kütləni və meydan psixologiyasından istifadə etməkdə davam edəcək. Erməni cəmiyyətində bunun artıq rezonans doğurduğu da göz qabağındadır. Hər halda, belə olmasaydı, hakimlər qərar verdikləri zaman qanunu deyil, Paşinyanı nəzərə alardılar, yaxud Dağlıq Qarabağda əvvəl və indi rəhbərlik edənlər məhkəmənin qərarına tərəfdar olmaz, baş nazirin istəyinə və arzusuna ram olardılar. Yeri gəlmişkən, Paşinyanı elə ən çox narahat edən də budur.

### Paşinyan hakimiyyəti, baş nazir kürsüsünü avantüra ilə ələ keçirsə də, idarəetmədə naşıdır və çıxış yolu tapmaqda acizdir

Mayın 20-də İrəvanda Paşinyanın çağırışına təxminən 1100 nəfər cavab verib və 11 məhkəmə binası blokadaya alınıb. Təkcə Konstitusiya Məhkəməsinin binası yaxınlığında təxminən 150 adam toplanıb. Toplaşanların, hətta bir qismi məhkəmənin keçmiş rejimin nəzarəti altında olduğunu cəfəngiyyat hesab etdiyini də gizlətmir. Bəziləri də əmindirlər ki, məhkəmə qanuni olacaq. Digər bir qismi də Paşinyanın hökumətin və məhkəmələrin azadlığını necə qura biləcəyinə və korrupsiyaya qarşı necə mübarizə aparacağına əmin olduqlarını, ona inandıqlarını bildirirlər.

Göründüyü kimi, Paşinyan küçə və meydanlarda toplaşanların ona olan etibarından sui-istifadə edir. Hətta hakimiyyət kürsüsünü ələ keçirsə də, yenə meydanlardan və meydan hərəkatından istifadə etməkdən çəkinmir. Belə görünür ki, bu meydanlar, orada toplaşan insanlar, inqilab əhval-ruhiyyəsi erməni baş nazirinin yeganə silahı, istinad yeri və ümididir. Məhz bu silahdan hələ də çarəsiz duruma düşdükdə, istifadə etmək cəhdləri isə, onun əslində, kimliyini və mahiyyətini tam çılpaqlığı ilə ortaya qoyur. Ortada olan isə, odur ki, hakimiyyəti, baş nazir kürsüsünü avantüra ilə ələ keçirsə də, idarəetmədə naşıdır və çıxış yolu tapmaqda acizdir.

Paşinyanın canlı yayım vasitəsilə insanları məhkəmə binalarının qarşısına toplaması da onun acizliyinin və uğursuzluğunun təsdiqidir. İdarəçiliyi ələ ala bilməyən baş nazir yenə də kütlənin gücündən, inqilabi ritorikadan istifadə etməyi özünə çıxış yolu hesab edirsə, o zaman hakimiyyət kürsüsü nəyinə lazım idi? Yaxud erməni xalqı, daha dəqiq desək, meydana toplaşanlar, nümayişçilər onu baş nazir təyin edibsə, niyə öz səlahiyyətləri və imkanları daxilində, məhkəmə də daxil olmaqla, bütün strukturları idarə edə bilmir? Belə məlum olur ki, Paşinyan nə bu vəzifəyə, hakimiyyət postuna layiq deyil, nə də idarəetmə ona görə deyil.

### Araşdırma niyyəti Dağlıq Qarabağ rəhbərliyinə, əslində isə, real qarşıdurmalara erməni baş nazirin adekvat reaksiyasıdır

Nikol Paşinyanın məşğal altında olan Dağlıq Qarabağ ərazilərinin bir qismini Azərbaycana qaytarmaq barədə ittihamları da, görünür, əbəs yerə deyil. Erməni baş nazir hazırda Ermənistanın nəzarətində olan bu ərazilərin aidiyyəti və mənsubiyyəti olan Azərbaycana qaytarılması niyyətinin dövlətə xəyanət kimi adlandırması da təsadüfi hesab oluna bilməz. Onun öz çıxışında bu niyyətli insanlar barədə sərt tədbirlər görəcəyi barədə xəbərdarlıq etməsi də, bir çox mətləblərdən xəbər verir. Aprel döyüşlərinin erməni parlamenti tərəfindən araşdırılması qərarını da analitiklər təsadüfi hesab etmirlər. Belə bir qərar və araşdırmalar Dağlıq Qarabağ rəhbərliyinə, əslində isə, real qarşıdurmalara baş nazirin adekvat reaksiyası hesab olunur. Hətta ona qarşı duranların cəzalandırılması üçün də vasitə olacağına şübhə yeri qoymur.

Paşinyan 9 may tarixində, Qarabağda olduğu zaman, ona hakimiyyətə müxalifətdə olanlar barədə verilən suala aqressiv reaksiyası da təsadüfi deyildi. Əbəs yerə deyildi ki, erməni baş nazir bu suala, "əgər kimsə Qarabağı əksinqilabi ocağa çevirmək istəyərsə, xalq oranı inqilab ocağına çevirər" cavabını vermişdi. Əslində, Paşinyan bu sualdan, necə deyərlər, öz hesabını da götürmüşdü və anlayırdı ki, onunla qarşıdurmada olan qüvvələrin varlığını ictimaiyyət çox yaxşı bilir. Təbii ki, erməni baş nazirinin cavabı onun kütlədən silah kimi istifadə etmək planını da açığa çıxarır və ifşa edir.

Paşinyanın Xankəndidə ən tanınmış tənqidçilərindən biri olan, Dağlıq Qarabağın milli təhlükəsizlik şurasının katibi Vitaliy Balasanyanı da gözü götürməməsi təkcə erməni ictimaiyyətinə bəlli deyil və bunu indi hamı bilir. Polisin 19 may tarixində İrəvanda Balasanyanın avtomobilini saxlaması, onun avtomobilində silah tapmaq məqsədi ilə axtarış aparmaq cəhdi deyilənləri təsdiq edir. Bu hadisə sərt mövqeyi ilə seçilən erməni analitik, həmin anda Balasayanla bir yerdə olan Qrant Melik Şaxnazaryan tərəfindən "Facebook"da canlı yayımlandığı üçün bunu təkzib etmək belə Paşinyanın imkanı xaricindədir. Doğrudur, Balasanyan order olmadan axtarışın aparılmasına razılıq və imkan verməyib və erməni polisi də bəyanat yayıb ki, axtarış Balasanyan əleyhinə və ondan şübhələnməklə əlaqədar olmayıb. Sözsüz ki, bu bəyanatın həqiqəti əks etdirəcəyinə də kiminsə inanacağı mümkünsüzdür və bunun, əslində, sifariş olduğu şübhə doğura bilməz.

Məsələ burasındadır ki, Ermənistanda hadisələrin heç də təqdim olunduğu, təbliğ olunduğu kimi cərəyan etmədiyi göz qabağındadır. Demokratiya adı altında hakimiyyət kürsüsünü ələ keçirən Paşinyan, heç də birmənalı şəkildə, qarşılanmır və Ermənistanda qarşıdurmaların mövcudluğunu təkzib etmək mümkün də deyil. Paşinyanın hakimlərlə və Qarabağ klanı ilə qarşıdurmada olduğu günün reallığıdır. Belə bir qarşıdurmada isə, hələ bundan sonra nələrin olacağını, hakimiyyəti ələ keçirmiş küçə nümayişçisinin bu qarşıdurmalara tab gətirəcəyini, öhdəsindən gələ biləcəyini düşünmək və proqnozlaşdırmaq isə, heç də həqiqətə uyğun görünmür.

***İnam HACIYEV***

## Ermənistan hökumətində əsaslı kadr dəyişiklikləri gözlənilir

Əgər gələn aya qədər ciddi bir hadisə, fors-major olmayacağı təqdirdə baş nazir Nikol Paşinyan hakimiyyət strukturlarında cidi kadr dəyişiklikləri edəcək. SİA-nın məlumatına görə, bu barədə Ermənistana məxsus "Jamanak" qəzeti yazır. "Paşinyan heyətinin təkcə peşəkar olmadığını deyil, onların dövlət idarəçiliyi bacarıqlarına malik olmadığını da başa düşüb. Başa düşüb ki, onlar rəhbərlik orqanlarının səlahiyyətini icra etmək imkanlarına malik deyillər"-nəşq qeyd edir.

## İyunda neçə gün evdəyik?

Bu il iyun ayında ölkədə 5 gün qeyri-iş günü olacaq. SİA-nın məlumatına görə, iyunun 5 və 6-sı Ramazan bayramı, 15-də Milli Qurtuluş Günü, 26-da isə Silahlı Qüvvələr Günü qeyd ediləcək. Lakin Milli Qurtuluş Günü şənbə gününə təsadüf etdiyi üçün iyunun 17-si də iş olmayacaq. Beləliklə, bazar günü də nəzərə alınarsa, ardıcıl olaraq iyunun 15,16, 17-si ölkədə qeyri-iş günüdür.

## Rusiyada milyondan artıq adam alkoqoldan zəhərlənib

Rusiyada milyondan artıq adam alkoqoldan zəhərlənib. SİA-nın rus mətbuatına istinadən məlumatına görə, bu barədə Rusiya Federasiya Şurasının sosial siyasət komitəsindən bildirilib. Məlumata görə, ötən il xəstəxanalara alkoqol zəhərlənməsi diaqnozu ilə xəstə daxil olub ki, onlardan 180 mini davamlı müalicə kursuna yazılıb. Hər il orta hesabla bu cür zəhərlənmələr nəticəsində yüzlərlə insan dünyasını dəyişir. 900 min adam bu müraciətlə xəstəxanalara daxil olur ki, onların 40 faizi ambulator müalicəyə verilir.

# Azərbaycan xalqı öz Prezidentinə güvənir və Onun ətrafında sıx birləşib!



**YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov: "Azərbaycanda çox dəyanətli, müdrik, sədaqətli, uzaqgörən, qətiyyətli və tam müasir mövqeli lider yetişib"**



"Xoşbəxt o xalqdır ki, müdrik lideri olur. Azərbaycan xalqı ikiqat xoşbəxtdir. Çünki onun müdrik lideri Heydər Əliyev müdrik varis yetişdirə bilib". Bu fikirləri Yeni Azərbaycan Partiyası Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov Prezident İlham Əliyevin son 16 ildə apardığı məqsədyönlü siyasət faktoruna və ölkəmizdə reallaşdırılan inqilabi islahatlar paketinin uğurlu nəticələrinə münasibətini bildirərkən deyib.

Onun sözlərinə görə, İlham Əliyevin Prezident kimi fəaliyyətinə nəzər saldıqda, nəhəng bir işin aparıldığına tam əmin olursan: "16 il müddətində dövlət başçısı Azərbaycanda müstəqil dövlət quruculuğunu bütün sahələr üzrə sürətli inkişafa doğru apara bilib. Keçən müddətdə, ölkə bir-birinin ardınca böyük uğurlar qazanıb. Onları sistemləşdirib, ümumi prizmadan baxılsa, demokratik və dünyəvi dövlət quruculuğunda, faktiki olaraq, yeni səviyyəyə keçidin baş verdiyini görərik."

"Bu ilin əvvəlindən başladılan dinamik islahatlar paketinin həyata keçirilməsi xalqın daha firavan həyatına və rifahına yönəlib" deyən YAP Şabran rayon təşkilatının sədri, həmçinin, qeyd edib ki, Azərbaycan xalqı bu siyasəti dəstəkləyir, öz Prezidentinə və liderinə güvənir: "Cənab İlham Əliyev 16 il bundan əvvəl, dövlət başçısı kimi fəaliyyətə başlayanda, verdiyi vədlərdən görünürdü ki, Azərbaycanda çox dəyanətli, müdrik, sədaqətli, uzaqgörən, qətiyyətli və tam müasir mövqeli lider yetişib. Belə lideri, ancaq Ulu Öndər Heydər Əliyev yetişdirə bilərdi. Çünki Onun siyasət və diplomatiya məktəbi çox güclü idi. Təcrübə sübut etdi ki, Ulu Öndər Azərbaycan xalqı üçün layiqli varis yetişdirib, Onun dövlət quruculuğu kursu isə dönmədən həyata keçirilib, daha da inkişaf etdiriləcək. Cənab İlham Əliyev dövlət başçısı, siyasi lider və diplomat kimi müasir dövrün çağırışlarına tam cavab verən inkişaf kursunu həyata keçirir. Azərbaycan istər daxili, istərsə də xarici siyasət amilində ardıcıl uğurlar qazanır və bu uğurlar, sözün əsl mənasında, ölkəmizin beynəlxalq aləmdə daha yüksək mövqeyə malik olmasına kifayət qədər zəmin yaratmış olur. Məhz xalqın rifahı naminə, həyata keçirilən davamlı və dinamik islahatlar nəticə etibarı ilə öz münbit bəhrələrini verməkdədir".

"Cənab İlham Əliyevin yeritdiyi siyasətin üstün cəhətlərindən biri də ondan ibarətdir ki, həyata keçirdiyi proqramların dünyada baş verən sosial-mədəni proseslərlə uyğunlaşmasına ayrıca önəm verib" deyə vurğulayan Mehdi Balabəyov, əlavə edib ki, hazırda qlobal miqyasda aktuallığı ilə seçilən sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoqa əhəmiyyətli töhfələr verib.

YAP Şabran rayon təşkilatının sədri, sonda qeyd edib ki, bu gün ölkədə xalq-iqtidar vəhdəti sarsılmaz əsaslara söykənib: "Bu təməli bir reallıqdır və bir daxili, yaxud xarici anti-Azərbaycan qüvvələri bu birliyə və bu vəhdətə təsir edə bilmək gücündə deyil. Ona görə də, bizlər - ölkəsini, dövlət başçısını sevən hər bir vətəndaş Prezident İlham Əliyev Cənablarının müəyyənləşdirdiyi siyasi kursa daim dəstək göstərəcək, Azərbaycanımızın daha qüdrətli ölkəyə çevrilməsi üçün var gücümüzlə çalışacaq, töhfələrimizi verməkdə davam edəcəyik".

**YAP Masallı rayon təşkilatının sədri: "Azərbaycan xalqı öz liderinə güvənir və Cənab İlham Əliyev də Ona göstərilən etimadı əməli işləri və yorulmaz fəaliyyəti ilə təsdiq edir"**



"Cənab İlham Əliyev özünün 16 illik Prezidentliyi dövründə, ilk növbədə, Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək, daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail oluşdu". Bu fikirləri isə, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev sözügedən mövzu ilə bağlı fikirlərini şərh edərkən deyib. Onun sözlərinə görə, hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə, Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. "Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, formalaşdırdığı səmərəli dövlət idarəçiliyi sayəsində, Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənib. Ölkənin təbii ehtiyatlarından, coğrafi mövqeyindən, maddi-mənəvi və insan resurslarından səmərəli istifadəyə, transmilli nəqliyyat-kommunikasiya və enerji dəhlizləri sahəsində həyata keçirilən uğurlu regional siyasət və düzgün mövqe seçiminə, daxili və xarici siyasətin müstəqillik əmsalına, sosial-iqtisadi inkişafın davamlılıq və dinamiklik göstəricilərinə, gələcək inkişaf potensialına və digər parametrlərinə görə də, hazırda Azərbaycan regionun özünü tam təmin edən dövlətləri sırasında ilk üçlükdə qərarlaşıb" deyə vurğulayan Seyfəddin Əliyev, əlavə edib ki, bütövlükdə, dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 16 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənib, Ona ən güclü dayaq olub.

YAP Masallı rayon təşkilatının sədri, həmçinin, bildirib ki, təkcə bu ilin ötən dövründə Prezident İlham Əliyevin uğurlu sosial islahatlar paketi 3 milyon vətəndaşın rifahına ciddi dəstək olan inqilabi addımların atılmasına imkan verib. Ölkəmizdə 11 aprel 2018-ci il tarixdə keçirilən prezident seçkilərindən artıq bir il ötür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçkilərdə növbəti dəfə xalqın böyük əksəriyyətinin səsini qazanaraq, parlaq qələbəyə nail olması ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasına xidmət edən inqilabi addımların atılması ilə xarakterik yeni uğurlu islahatlar mərhələsinə keçidə təminat vermiş oldu. Bu dövrdə dövlət başçısının imzaladığı fərman və sərəncamların mühüm bir hissəsi, məhz əhalinin sosial müdafiəsinin əhəmiyyətli şəkildə gücləndirilməsi, sosial sahə üzrə müasir, şəffaf, çevik, optimal idarəçilik və xidmət mexanizmlərinin formalaşması məramına istiqamətlənib. Bu mühüm məqam isə, Prezident İlham Əliyevin siyasi fəaliyyətində məhz insan, vətəndaş amilinin, ölkədə sosial rifah və sabitliyin təminatının əsas yer tutduğunu bir daha təsdiq edir. Təbii ki, Azərbaycan xalqı öz liderinə güvənir və Cənab İlham Əliyev də Ona göstərilən etimadı əməli işləri, yorulmaz fəaliyyəti ilə təsdiq edir. Bu siyasət söz yox ki, bizi istəməyən qüvvələrin də kürkünə birə salır və Azərbaycan dövləti gücləndikcə, xainlər və anti-Azərbaycan dairələri ağır məğlubiyyətlərini almaqla, tarixin arxivinə gömüləcəklər. Çünki onların qarşısında güclü isyasət və xalqın iradəsi tandemi dayanır".

***Rəfiqə KAMALQIZI***

## "Aİ-Azərbaycan əməkdaşlığı önəmli dividendlər vəd edir"



"Azərbaycanın dünya dövlətləri, nüfuzlu beynəlxalq qurumlar, o cümlədən də Avropa İttifaqı ilə əməkdaşlığa ehtiyacı varsa, bu əlbəttə ki təktərəfli deyil. Çünki onların da Azərbaycana ehtiyacı var. Bölgədə, regionda Azərbaycanın arzusu, istəyi olmadan heç nəyi reallaşdırmaq, icra etmək mümkün deyil". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. O bildirib ki, müstəqillik illərində Azərbaycanın əməkdaşlığa, tərəfdaşlığa üstünlük verdiyi önəmli və nüfuzlu beynəlxalq qurumlardan biri Avropa İttifaqıdır.

Deputat söyləyib ki, Azərbaycan öz milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir və bu əməkdaşlığa da daim sadiqdir. Prezident İlham Əliyevin bir neçə gün bundan öncə Brüsselə səfərini xatırladan K.Əliyeva vurğulayıb ki, dövlət başçısı səfər çərçivəsində Avropa İttifaqının rəsmiləri ilə yenidən bir araya gəlməklə yanaşı, keçirilən görüşlər tərəflər arasında münasibətlərin növbəti yeni mərhələyə qədəm qoyduğunu ortaya qoydu: "Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla görüş ikitərəfli münasibətlərin inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdi". Deputat əlavə edib ki, bu gün Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Avropa İttifaqı üçün xüsusi əhəmiyyət daşıyır: "Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə sahib olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər nöqteyi-nəzərindən önəmli dividendlər vəd edir".

***Nailə Məhərrəmova***

# Ölkəmizdə sağlam ekoloji mühit yaradılıb

## 23 may Ekologiya və Təbii Sərvətlər Nazirliyi əməkdaşlarının peşə bayramıdır

***Ölkəmizin sosial-iqtisadi, mədəni və digər sahələrini əhatə edən sürətli inkişafı müasir dünyanın mühüm problemlərindən olan ekologiya probleminə də xüsusi diqqət artırmaq zərurətini ortaya çıxarmışdır. Ekologiya problemlərinin həllinə yüksək dövlət qayğısı və bu işin dövlət siyasətinə çevrilməsi, ölkəmizin hər yerində ekoloji mühitin yaxşılaşdırılması üçün çoxşaxəli tədbirlərin həyata keçirilməsi artıq yüksək inkişafın, dövlətin vətəndaşına qayğısının və Azərbaycanda beynəlxalq standartların mövcudluğunun göstəricisidir. Son illər Azərbaycanda ekoloji problemlərin həlli dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmizin iqtisadi, sosial, mədəni və digər sahələrin inkişafı, yeni iş yerlərinin yaradılması, eləcə də, ətraf mühitin sağlamlaşdırılması, xalqımızın rifahının yaxşılaşdırılması naminə, təbii sərvətlərdən istifadə məsələləri ölkə vətəndaşlarının fəal iştirakına zəmin yaratmışdır.***



Nadir təbii şəraitə, zəngin sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi məsələlərinə daim xüsusi diqqət və qayğı göstərilmiş, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz Ümummilli Lider Heydər Əliyevin 23 may 2001-ci il tarixli Fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradıldı. Bu gün - 23 may Ekologiya və Təbii Sərvətlər Nazirliyi əməkdaşlarının peşə bayramıdır. ETSN əməkdaşlarının bu peşə bayramı isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 may 2007-ci il tarixli Sərəncamı ilə təsis edilib. ETSN Azərbaycan ərazisində, həmçinin, Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması istiqamətində dövlət siyasətini həyata keçirir.

### EKOLOJİ VƏZİYYƏTİN SAĞLAMLAŞDIRILMASI VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ HÜQUQİ BAZA TƏKMİLLƏŞDİRİLİB

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində mühüm işlər görülür. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına, hidrometeorologiyanın inkişafına dair milli proqramlar uğurla yerinə yetirilir. Dövlət başçısının “Ekologiya İli” elan etdiyi 2010-cu ildə bu sahəyə diqqət daha da artırılmış, görülən işlər bütün ölkəni əhatə edərək davamlı xarakter almışdır. Azərbaycanda “Ekologiya İli” elan olunması Azərbaycan Prezidentinin ekologiya və ətraf mühitin mühafizəsinə, insanların sağlamlığının qorunmasına diqqət və qayğının bariz nümunəsidir. Ekoloji layihələr Azərbaycanın regionlarını da əhatə edir. Əhalinin təmiz su ilə təminatının yaxşılaşdırılması üçün də əməli işlər görülür. Təsadüfi deyil ki, milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri, məhz ətraf mühitin mühafizəsi və insanların sağlam təbii mühitdə yaşamasının ən yüksək səviyyədə təmin etməkdir.

Qabaqcıl dünya təcrübəsinə və yeni texnologiyaların tətbiqinə diqqət nəticəsində, ölkədə müasir ekoloji monitorinq sistemi yaradılmışdır. Ətraf mühit komponentlərinin dəqiq analizi və qiymətləndirilməsi məqsədi ilə respublikanın müxtəlif bölgələrində, o cümlədən, ölkəyə daxil olan transsərhəd çayların üzərində ən müasir cihazlarla təmin olunmuş analitik tədqiqat laboratoriyaları təşkil edilmişdir. Bakı şəhərinin ekoloji vəziyyətinə təsir edən neftlə çirklənmiş torpaqların təmizlənməsi, sənaye müəssisələrinin şəhərətrafı ərazilərə köçürülməsi və yeni dünya standartlarına uyğun sənaye müəssisələrinin yaradılması prosesi uğurla davam edir. Eyni zamanda, bu gün fəaliyyət göstərən sənaye müəssisələrində quraşdırılmış qaz-toztutucu qurğuların səmərəli fəaliyyəti nəticəsində, Bakı şəhərində stasionar mənbələrdən atmosferə atılan zərərli maddələrin miqdarının xeyli dərəcədə azalması müşahidə edilir.

Artıq ekoloji vəziyyətin sağlamlaşdırılması və ətraf mühitin mühafizəsi sahəsində hüquqi baza təkmilləşdirilmiş, bunula bağlı, dövlət proqramları təsdiq edilmişdir.

### ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ, EKOLOJİ PROBLEMLƏRİN HƏLLİ VƏ YAŞILLAŞDIRMA PRİORİTET MƏSƏLƏLƏR SIRASINDADIR

Müasir dünyamızı narahat edən məsələlər sırasında zəngin və fərqli ətraf mühitin və planetimizin qorunması diqqətdədir. Beynəlxalq ictimaiyyət, siyasi və elmi dairələr ətraf mühitlə bağlı problemlərin həllində maraqlıdırlar. Dünyada yaşayan insanlar ekoloji problemlərə xüsusi önəm verərək, planetimizə görə məsuliyyət daşıyırlar. Bioloji müxtəlifliyin, həyatımızı sağlam, maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub-saxlanmasına dünya ictimaiyyəti öz töhfələrini verir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri, Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq kampaniyasının təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr sırasında planetimiz üçün əhəmiyyətli olan amillər də diqqətdə saxlanılır. Leyla Əliyeva “Biz hamımız Planetimiz üçün məsuliyyət hiss etməliyik” deməklə ətraf mühitin mühafizəsi, planetimizin üzləşdiyi ekoloji təhlükənin aradan qaldırılmasının vacibliyini diqqətdə saxlayıb. İDEA-nın reallaşdırdığı layihələr sırasında “Bir planet - bir gələcək”, “Böyük Qafqaz beşliyi” və s. əhəmiyyətlidir. Belə ki, “Böyük Qafqaz beşliyi” əsasında yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növü müəyyən edilib. Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsü - IDEA-nın təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci ildən fəaliyyətə başlayan IDEA - Ətraf Mühit Kampaniyası ölkəmizdə ətraf mühitin qorunması sahəsində görülən işlərin məntiqi davamı kimi qiymətləndirilə bilər.

Ətraf mühitin mühafizəsi, ekoloji problemlərin həlli, yaşıllaşdırma, yeni meşələrin salınması prioritet məsələlər sırasındadır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Zaqatala-Balakən regionunda ölkə tarixində ilk biosfer qoruğu yaradılacaq

***Almaniya İnkişaf Bankının və Azərbaycan hökumətinin müvafiq dəstəyi ilə Zaqatala-Balakən regionunda ölkə tarixində ilk biosfer qoruğu yaradılacaq. Zaqatala-Balakən biosfer qoruğunun yaradılması layihəsinə artıq bir neçə ildir başlanılıb, layihəyə hazırlıq işləri bitib. Hazırda Almaniya İnkişaf Bankının təşkilatçılığı ilə Almaniyada beynəlxalq tender keçirilib və tenderə təşkilatlar cəlb olunub. Yaxın həftələrdə tenderin qalibinin elan ediləcəyi gözlənilir. Tenderin qalibi olan şirkət tərəfindən Zaqatala-Balakən biosfer qoruğunun yaradılması işlərinə başlanılacaq.***



AZƏRTAC xəbər verir ki, bu barədə Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru Hikmət Əlizadə mayın 22-də keçirilən mətbuat konfransında məlumat verib. H.Əlizadə, həmçinin deyib: “Layihənin ümumilikdə 4 il ərzində başa çatdırılması, yəni 2023-cü ilin sonuna qədər bitməsi planlaşdırılır. Layihə çərçivəsində Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında və ətraf ərazilərdə istər təbiəti mühafizə, istərsə də sosialyönümlü tədbirlərin həyata keçirilməsi, yəni orada yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsi, həmin ərazinin tam ekoloji cəhətdən təhlükəsiz bir əraziyə çevrilməsi nəzərdə tutulub”.

# İstintaq komissiyası Ermənistan Parlamentində yaradılmayacaq




Aprel müharibəsi məsələsinə dair istintaq komissiyası Parlamentdə yaradılmayacaq. SİA-nın məlumatına görə, “Qraparak” qəzeti yazır ki, aprel müharibəsi şəraitini öyrənmək üçün istintaq komissiyası Ermənistan Parlamentində yaradılmayacaq, çünki “Milli Məclisin Əsasnaməsi” nə əsasən təhlükəsizlik və müdafiə araşdırma komissiyasının səlahiyyətləri yalnız səlahiyyətli parlament komitəsi tərəfindən həyata keçirilə bilər. Qanunvericiliyə görə deputatların ümumi sayının üçdə biri tələb olunur. Yəni, yalnız bu halda Andranik Koçaryanın rəhbərliyi altında daimi müdafiə və təhlükəsizlik məsələləri üzrə parlament komissiyası bu funksiyanı öz üzərinə götürə bilər.

***İnam Hacıyev***

# "Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği"

***Bu il orta əsrlərin dahi şairi, filosofu və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi tamam olur. Şairin fiziki mövcudluğundan altı yüz il keçməsinə baxmayaraq, zamanla onun şəxsiyyətinə və yaradıcılığına olan maraq azalmayıb. Sirr deyil ki, Nəsimini dahilik zirvəsinə qaldıran xüsusiyyətlərindən biri də onun yaşadığı əsrdən gələcək əsrlərə baxışıdır. Elmin və fəlsəfi düşüncənin, kainatın və yaradılışın bir neçə sirlərini açmağa imkan verdiyi müasir dövrdə biz Nəsimiyə daha çox yaxınlaşır və onun dərin mənalı düşüncələrinin mahiyyətinə varırıq.***




### Klassik ədəbi irsə müasir baxış

Nəsiminin Şərqin mədəniyyət xəzinəsində başlıca yerlərdən birini tutan poetik irsi Azərbaycan xalqının parlaq mədəni sərvətidir. Bu səbəbdən, Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu ili "Nəsimi İli" elan etməsi dahi şairin həyat və yaradıcılığının öyrənilməsində, onun şəxsiyyətinə və poeziyasına marağın dirçəldilməsində yeni axının mənbəyi oldu.

İllər öncə, dahi şairin obrazını təcəssüm etdirən bir sıra musiqi əsərləri yaradılıb və konsert proqramlarında ifa olunub. Bunlar Cahangir Cahangirovun "Nəsimi" üçhissəli kantatası, Azər Rzayevin orkestr, bass-tar və şeir ifası üçün "Nəsimi" simfonik poeması, Əfrasiyab Bədəlbəylinin "Nəsimi" vokal-xoreoqrafik poeması, Əziz Əzizlinin eyniadlı simfonik poeması, Ədilə Hüseynzadənin xor kapellası üçün iki kompozisiyası və digər əsərlərdir. Bəstəkar Tofiq Quliyev 1973-cü ildə "Azərbaycanfilm" Kinostudiyasında rejissor Həsən Seyidbəylinin lentə aldığı "Nəsimi" tarixi kinofilminə çox gözəl musiqi yazıb. Daxili təlatüm notları və incə ifadə tərzi ilə zəngin olan, simfonik fraqmentlərin böyük rol oynadığı bu musiqi filmin uğur qazanmasına əhəmiyyətli dərəcədə kömək edib.

2017-ci ilin aprelində premyerası Amsterdamda keçirilmiş bu möhtəşəm əsərin ərsəyə gəlməsinin maraqlı tarixçəsi var. Hollandiyada yerləşən tanınmış Avropa təşkilatı "Amsterdam Royal Consertgebouw", artıq bir neçə ildir ki, "Passions" (tərcüməsi ehtiraslar, əzablar deməkdir) musiqi layihəsi həyata keçirir. Həmin il UNESCO-nun Parisdəki mənzil-qərargahında Nəsiminin ölümünün 600 illiyi münasibətilə keçirilən tədbirlər çərçivəsində Firəngiz Əlizadənin musiqisi əsasında daha bir əsər-"Nəsimiyə ithaf" tamaşası təqdim olunub. Bu quruluş iki məşhur kamera əsərinin əsasında yaradılmış balet-konsert idi.

2019-cu ilin "Nəsimi İli" elan edilməsi ilə əlaqədar Bəstəkarlar İttifaqı bu yaradıcılıq ittifaqının üzvü olan, həmçinin üzv olmağa hazırlaşan gənclərin cəlb olunduğu yeni layihəyə dair təşəbbüs irəli sürüb və bu layihələr həyata keçirilməkdədir.

### Nəsimi irsinin milli, mədəni-mənəvi dəyərlərin təbliği baxımından, xüsusi əhəmiyyəti

Nəsimi irsinin milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından, xüsusi əhəmiyyəti var. Bu baxımdan, Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfovun "Nəsimi əsərlərinin dili və poetik özəllikləri" sərlövhəli məqaləsində deyilir ki, Nəsiminin şeiriyyətində mətn altında gizlənən mənaya varmaq üçün təsəvvüf, hürufi simvolikasına vaqif olmaq, həmin açarlardan istifadə edib, gizli məna xəzinəsini açmaq lazım gəlir. Nəsimi hələ öz sağlığında:

**Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz,**
**Bu, quş dilidir, bunu Süleyman bilir ancaq.**

- deyirdisə, müasir oxucu üçün Nəsimi əşarının məna dərinliklərinə varmağın necə çətin olduğunu təsəvvür etmək mümkündür. Belə ki, müasir oxucu (söhbət hazırlıqsız oxucudan gedir) Nəsiminin hürufi ideyalarını bədii biçimdə ifadə etdiyi şeirlərində sözlərin lüğəvi mənasını qavrasa da, şairin ayrılıqda götürülən konkret şeir vahidində nəyi ifadə etmək istədiyini sona qədər tam anlaya bilmir. Yəqin Nəsimi şeirinin sirri də elə bundadır.

Müşahidələr göstərir ki, müasir dövrdə klassik poeziyamızın bir çox tanınmış simalarından şeirləri gənclər arasında daha çox oxunan, sevilən, əzbərlənən, hətta şərhinə cəhd göstərilən şair məhz Nəsimidir. Hətta xüsusi filoloji savadı olmayan, fəlsəfəyönümlü təhsil almayan ədəbiyyatsevərlər Nəsimidən bir neçə beyt əzbər söyləyirlər. Bir gəncin sevdiyini vəsf edərkən:

**Səni bu hüsni-cəmal ilə, bu lütf ilə görən,**
**Qorxdular həq deməgə, döndülər insan dedilər.**

Nəsimi yaradıcılığının unikallığı ilə seçilən nümunələri təkcə fəlsəfi mündəricəsi, rəmzlərlə ifadə baxımından deyil, eyni zamanda, forma əlamətləri ilə oxucunu cəlb edir, onları dinləyənin heyrətinə səbəb ola bilir.

Şairin şeirlərinin forma gözəlliyinə səbəb olan bəzi poetik fiqurların işlənmə özəlliyinə nəzər yetirək. Bu şeirlərin daha yaddaqalan olmasına səbəb onlarda hürufi dərvişlərinin rəqs ahəngini xatırladan rədiflərin, təkrirlərin, daxili qafiyələrin işlənməsi, eyni samit və bəzən də sait səslərin xüsusi ahəng yaratmasıdır:

**Şəms mənəm, qəmər mənəm, şəhd mənəm, şəkər mənəm,**
**Gör bu odun zəbanəsin, mən bu zəbanə sığmazam.**

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Qüdsiyyə Qəmbərovanın "Nəsimi şeirində sözün hikmətləri" sərlövhəli məqaləsində Nəsimi sözündən bir canlı varlıq kimi danışılır. Onun kamil bədii tərifi verilir. Şairin yaradıcılığında sözün yaranışından başlayaraq əbədiyyət qazanmasına qədərki mərhələləri sistemli şəkildə canlandırılıb.

Sözün bu məqamında professor Samət Əlizadənin xatirəsini yad edərək, onun Nəsimi möcüzəsinə verdiyi zəngin dəyərlərdən birini nümunə gətirək: "XIV əsrin böyük Azərbaycan şairi Nəsiminin sənət dünyası ilə üz-üzə durarkən, özünü ümman kimi dərin idrakın və səma kimi zəngin xəyalın vəhdətindən yaranmış sehrli bir məbədin astanasında hiss edirsən".

Nəsimi sözə ən əvvəl alim, sonra isə şair mövqeyindən yanaşır. Şairin nəzərində sözün elmi tutumu onun bədii qiymətini müəyyən edir. Nəsimi sözü, hər şeydən əvvəl, Ulu Tanrının hökmünə bağlayır:

**Söyləyən həqdir mənim dilimdə hərdəm, yoxsa mən,**
**Çar ənasirdən mürəkkəb bilisani-əbkəməm.**

Nəsimidə söz anlayışı dilə bərabər tutulur-həm ünsiyyət vasitəsi, fikrin ifadə forması kimi dil mənasını, həm də milli-mənəvi sərvətlərin ən alisi və baqisi məzmununu daşıyır.

### Milli və bəşəri ideyaların təbliği

Bu il həm ölkəmizdə, həm də xaricdə "Nəsimi İli" çərçivəsində müxtəlif sərgilər, ədəbi-bədii axşamlar, konsert və elmi konfranslar təşkil olunub, şairin xatirəsi yad edilib. Belə ki, Özbəkistanda "Məndə sığar iki cahan" adlı poeziya müsabiqəsi elan edilib, Budapeştdə ədəbi-musiqili tədbir keçirilib. Bundan başqa, Beynəlxalq Türk Akademiyasının təşəbbüsü ilə Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində "Nəsimi İli"nin açılışı olub, Braziliyada fotosərgi açılıb.Vyanada yerləşən Azərbaycan Mədəniyyət Mərkəzində Nəsimiyə həsr olunmuş məruzə axşamı keçirilib. Şimali Kiprdə, Ankarada, İstanbulda və digər ölkələrdə "Nəsimi İli" qeyd olunub. Hindistan Universiteti və TÜRKSOY "Nəsimi İli" üçün tədbirlər proqramı hazırlayıb. "Vikipediya"da Nəsimi haqqında bolqar dilində məqalə yaradılıb, bir çox əcnəbi ölkə mediasında Nəsimi haqda geniş məqalələr dərc olunub...

### Ölkəmizin ali və orta məktəblərində, musiqi ocaqlarında "Nəsimi İli" böyük həvəslə qeyd olunur

Xaçmaz şəhərində dahi Nəsiminin göz oxşayan heykəlinin ucaldılması isə ölkə rəhbərliyinin Nəsimi irsinə verdiyi daha bir göstəricidir. Mədəniyyət naziri Əbülfəs Qarayevin "Nəsimi İli" çərçivəsində çoxsaylı səfərləri də dahi şəxsiyyətin yaradıcılığının təbliğinə yönəldilib. Nazir öz çıxışlarında bu ilin, bütövlükdə İmadəddin Nəsiminin adı ilə bağlı olmasının təqdirəlayiq olduğunu vurğulayıb: "Sərəncam bu böyük şəxsiyyətin yaradıcılığını, xalqımıza verdiyi böyük töhfələri yenidən dərk və təhlil etmək üçün fürsət yaratdı. Xalqımızın tarixində böyük mütəfəkkirlər və ediblər olub. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1973-cü ildə Nəsiminin 600 illik yubileyinin UNESCO səviyyəsində qeyd edilməsi Azərbaycan mədəniyyəti tarixində əhəmiyyətli hadisəyə çevrilmişdi. O vaxt Nəsimiyə heykəl də qoyuldu, film də çəkildi, elmi işlər yazıldı və kitablar çap edildi. Azərbaycanın Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı ilə 2017-ci ilin may ayında Parisdə, UNESCO-nun Baş Qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd olunub. Ötən il Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ölkəmizdə ilk dəfə Nəsimi İncəsənət Festivalı keçirildi. Festival çərçivəsində Azərbaycana çoxsaylı ölkələrdən ədiblər, alimlər və tədqiqatçılar gəldi. Bu festival da Nəsimi irsinin təbliği və dünyaya bir daha tanıdılması ilə yanaşı, ölkəmizin də yaxşı tanınması üçün yeni imkanlar açdı. "Nəsimi İli" xalqımızın mənəviyyatı və mədəniyyəti ilə birbaşa əlaqəlidir. Biz bu il üçün tədbirlər planı hazırlamışıq. İlk addımı buradan başlayırıq".

Mətbuata açıqlamarında AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov bildirir ki, Nəsimi obrazını ədəbiyyatda, musiqidə, rəssamlıqda, heykəltəraşlıqda və kinoda təcəssüm etdirən dəyərli əsərlər yaranıb: "Yazıçı İsa Hüseynovun "Məhşər" romanı və onun ssenarisi əsasında rejissor Həsən Seyidbəylinin çəkdiyi "Nəsimi" filmi, görkəmli rəssam Mikayıl Abdullayevin "Nəsimi" portreti, şair Qabilin "Nəsimi" poeması, bəstəkarlardan Süleyman Ələsgərovun şairin qəzəllərinə bəstələdiyi romanslar, Cahangir Cahangirovun "Nəsimi" kantatası, Azər Rzayevin "Nəsimi" simfonik poeması, Fikrət Əmirovun "Nəsimi haqqında dastan" baleti və s. Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin "Nəsimi" passionu dahi şairimizin sönməz həyat eşqinin, haqq-ədalət uğrunda mübarizəsinin dünyaya tanıdılmasında mühüm rol oynadı.

Məlumdur ki, Nəsiminin məzarının Hələbdə olduğunu böyük mütəfəkkirimiz Rəsul Rza aşkar edib. Uzun illərdir dahi Nəsiminin qəbri Hələbin ən çox ziyarət olunan məkanlarından birinə çevrilib.

Biz daim fəxr edə bilərik ki, əsrlər boyu tarixi və mədəniyyəti ilə seçilən Azərbaycanın Nəsimi kimi dahi şairləri var. Elə buna görə də gələcək nəsillər mənəvi sərvətlərimizlə haqlı olaraq qürur duyacaqlar.

*Jalə Rzabəyli,*
*Məqalə Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fonduna təqdimat üçündür*

# Əli Kərimli kobud səhvlərinin güdazına gedəcək

Müxalifət düşərgəsində təmsil olunan dağıdıcı xislətli partiya sədrlərinin anormal fəaliyyətlərinin bütün çərçivələri aşdığını demək olar. Çünki hər fürsətdə ölkəmizin milli və dövlətçilik maraqlarına zərbə vurmağa və uğurlu nailiyyətlərə kölgə salmağa çalışırlar. Hətta səhvlərini etiraf edib, xalqdan və Prezidentdən üzr istəyənləri belə hədəfə alır, onları satqınlıqda günahlandırırlar. Misal kimi, AXCP sədri Əli Kərimlinin Emin Millinin buraxdığı səhvlərinə görə, Prezident İlham Əliyevdən üzr istəməsini tənqid edərək, onu islah olunmuş mühacir adlandırmasını göstərmək olar. Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin düşüncəsində və ağlında problemlərin yarandığını və bu səbəbdən də, səhvlərini etiraf edərək, üzrxahlıq edən E.Millini hədəfə aldığını bildirdilər.

### Təkamül Partiyasının sədri Teyyub Qənioğlu: "Emin Millinin hədəfə alınması məqsədli xarakter daşıyır"



- İdarəetmədə belə bir anlayış var - düzgün idarəetmə qərarı qəbul etmək üçün sənin obyektiv informasiyan olmalıdır. Bir informasiyanı alırsan və səhv qərar verirsən, sonradan başa düşəndə ki, informasiyan səhv olub. Sənin qəbul etdiyin qərara görə, hər hansı bir xəta baş veribsə, ondan üzr istəmək lazımdır. Yəni E.Milli malik olduğu informasiyalara görə, bu və ya digər məlum fəaliyyətini həyata keçirib, sonradan başa düşüb ki, bunun mövqeyində səhvlər var, yəni aldığı informasiya reallığa uyğun deyil və bu baxımdan, səhvini etiraf edib. Yəni Emin Millinin buraxdığı səhvlərinə görə, Prezident İlham Əliyevdən üzr istəməsi qəbul olunan haldır. İnsan öz səhvini etiraf etməsinə görə, onun qınanması düzgün deyil. Hər kəsin öz fikri var, hansısa bir qərar qəbul edəndə, nəyəsə əsaslanır, həmin qərarın səhv olduğunu başa düşəndə, qərarını düzəltməyə çalışır. Bundan narahatlıq keçirib, öz səhvini etiraf edən şəxsi hədəfə almaq yanlış addımdır. Təbii ki, bunlar başqalarını bu cür hərəkət etməkdən çəkindirmək məqsədi daşıyır. E.Millinin hədəfə alınması ilə başqalarına mesaj vermək ki, iqtidara etdiyin tənqidə görə, üzr istəyəcəksənsə, səni də E.Millinin gününə salacağıq. Yəni burda təkcə bu istək ola bilər.

### Ədalət Partiyasının Aparat rəhbəri Mütəllim Rəhimli: "Yalnız dəlilər və ölülər fikirlərini dəyişmirlər"



- Əvvəla, onu deyim ki, hər bir insanın səhvi ola bilər. Həyat davam edir və insanlar elə bir yaradılış formasıdır ki, onlar, mütəmadi olaraq, səhvlər buraxırlar. Burada əsas olan odur ki, insanlar səhvlərini başa düşür və geri çəkilirlər. Deyildiyi kimi, yalnız dəlilər və ölülər fikirlərini dəyişmirlər. Yəni digər insanlar fikirlərini dəyişirlər. Ona görə də, E.Millinin də dəyişməsi və buraxdığı səhvlərə görə, Prezident İlham Əliyevdən üzr istəməsi normal bir şeydir. Yəni əgər E.Milli öz səhvini etiraf edibsə, bu zaman ona qarşı hər hansı bir irad tutulması düzgün deyil. Doğrudan da, obyektiv olaraq, səhv buraxdığını izah edirsə və bundan geri çəkilirsə, bu, normal bir haldır. Buna görə, onu qınamaq olmaz. Çünki insanlar həyata baxışlarını dəyişə bilərlər. Bir sözlə, AXCP sədri Əli Kərimli E.Millinin səhv etdiyinə görə üzr istəməsini tənqid etməsi düzgün deyil. Yəni insanları, fikirlərini dəyişdiyinə görə, ittiham etmək olmaz.

**GÜLYANƏ**

# MKİ-nin "Meydan" TV-dəki izləri...

## *Sənan Nəcəfov: "Bu "şeytan TV" elə həmin o layihədi..."*






"Meydan" TV-nin yarandığı dövrdən hazırkı vaxta qədər Azərbaycan əleyhinə fəaliyyət göstərən müxtəlif mərkəzlərlə əməkdaşlıq etməsi faktları kifayət qədərdir və bu barədə ölkə mediasında çoxsaylı şərhlər, yazı və məqalələr dərc olunub. Xüsusilə, dövlət maraqlarımıza qarşı tətbiq edilən sifarişlər əsasında layihələr həyata keçirib, qrantlar əldə edən "Meydan" TV-nin erməni lobbisi ilə yanaşı, hətta Qərb ölkələrinin xüsusi kəşfiyyat orqanları ilə də sıx əməkdaşlıqlarının olması faktdır. Əbəs deyil ki, ölkəmizdə prezident və parlament seçkiləri ərəfəsində, seçkilərdən sonrakı dövrlərdə və habelə, mühüm beynəlxalq tədbirlər zamanı "Meydan" TV özəl canfəşanlıqlar göstərərək, nökəri olduğu mərkəzlər qarşısında nə qədər sədaqətli olduğunu anti-Azərbaycan xarakterli məqalələri ilə sübuta yetirməyə çalışıb. O da, əbəs deyil ki, vaxtilə bu qurum öz saytında işğal altındakı ərazilərimizi "DQR"-in xəritəsi kimi göstərib, üstəlik, qondarma erməni soyqırımının tanınması istiqamətində erməni lobbisinin işinə yarayıb.

Bu arada, tanınmış jurnalist, "qhtxeber.az" saytının baş redaktoru Sənan Nəcəfov maraqlı araşdırması ilə kifayət qədər maraqlı detalı üzə çıxarıb və "Meydan" TV-nin ifşa olunmasında danılmaz faktı ictimailəşdirib.

### 31 yaşlı ABŞ vətəndaşı Kerolay Satklif Leliani - Bu xanım kimdir?

Facebook səhifəsində maraqlı nüasnlara toxunan jurnalist yazır. SİTAT: "Tbilisidə fəaliyyət göstərən "Chai Khana" layihəsini xatırlayırsınız? Fotoda gördüyünüz bu xanım həmin o layihənin rəhbəri olub. Bu xanım kimdir? Ooo...

"Şeytan" TV-nin ideya ilhamçılarından və siyasi təlimçilərindən biri isə 31 yaşlı ABŞ vətəndaşı Kerolay Satklif Leliani. Mərkəzi Kəşfiyyat İdarəsinə (MKİ) bağlılığı var.

Bəs Azərbaycanla xəyali bağlılığı olan media-layihədə MKİ agentinin nə işi var?

Bakıda, ilk dəfə, o, ABŞ Dövlət Departamenti tərəfindən dəstəklənən Fulbrayt - Amerika tədris qrantları proqramı çərçivəsində peyda olub.

2011-ci ildə MKİ agenti, artıq Beynəlxalq Qırmızı Xaçda məsləhətçidir, yarım il sonra Avropa Yenidənqurma və İnkişaf Bankında məsləhətçidir.

Daha yarım il sonra, o, artıq BMT-də görünür, sonradan isə, hər şeyi bir kənara ataraq, yenidən siyasi araşdırmalarını davam etdirməyə girişir. Bu dəfə Haaqada. Məhz liberal dünyanın bu zümrüd şəhərində, o, "Meydan" TV inqilabi layihəsinə qoşulmaq kimi taleyüklü qərar verir.

2014-cü ildə bu cür vacib beynəlxalq təşkilatların keçmiş əməkdaşı "Meydan" TV-nin maliyyə meneceri kreslosuna əyləşir. Necədir, sizinçün?"

### "Azərbaycan naminə" ifadələri, sadəcə, havaya çevrilə bilər...

Beləliklə, bu faktın qarşısından harayasa qaçmaq mümkün deyil. Bu baxımdan, əgər "Meydan" TV-nin artıq sabiq rəhbəri Emin Milli radikal və dağıdıcı müxalifətdən imtina etməsi, yaxud antimilli qüvvələrdən ayrılmasını reklam etməsi yerinə bu kimi faktların görünməyən tərəflərini də üzə çıxara bilər. Yəni özünü səmimi göstərmək düşüncəsindədirsə, daxilində, həqiqətən də, peşmançılıq hissləri varsa, eləcə də, açılım fikirlərini nümayiş etdirmək istəyirsə, mütləq zamanında hansı kəşfiyyat qrupları, xarici mərkəzlərı ilə əməkdaşlıq etdiyini etiraf etməlidir. Əks halda, onun səmimiyyəti qeyri-ciddi təsir göstərə, "Azərbaycan naminə" ifadələri, sadəcə, havaya çevrilə bilər.

**Rövşən RƏSULOV**

# Vladimir Solovyovun "Axşam" azğınlığı





May ayını 20-də "Rusiya" kanalında Vladimir Solovyovun aparıcılığı ilə birbaşa yayımla efirə verilən "Axşam" verilişində heç bir çərçivəyə, jurnalist etikasına sığmayan, bütün norma və standartlardan kənar, bir az da dəqiq desək həyasızlığın şahidi olduq. Əvvəla, gəlin, bir az dəqiqləşmə aparaq, jurnalist, aparıcı kimdir, tərəfmi, hakimmi, yoxsa nə? Solovyovun timsalında Rusiyanın müxtəlif kanallarında buna oxşar hadisələr az göstərilməyib. Aparıcı hədəf seçir, lap ovçu kimi, onu tələyə (yəni verilişə) tərəf çəkir və... Sonrasını özünüz bilirsiniz. Yəni, aparıcının öz verilişinə dəvət etdiyi və istənilən mövqeyinə dəstək verməyə həmişə hazır olan "tamaşaçılar" zalı doldurur və təbii ki, aparıcının hər fikri alqışlanmaq şərti ilə və bundan sonra "qurbanlıq quzu" zala gətirilir. Bundan sonra mərəkə başlayır...

Bu dəfə də belə oldu, hədəf Ukraynanın yeni seçilmiş prezidenti Zelinski oldu. Solovyov Ukraynadan gəlmiş ekspertlərə söz versə də, onları danışmaqlarına peşman etdi. Hələ vəzifəsinə iki gün əvvəl başlamış Zelinskini faşistə bənzətdi, söydü, aşağıladı, təhqir etdi və onu NATO-ya bundan sonra da rəğbət göstərəcəyi halda zəlil günə qoyacaqları barədə hədə-qorxu gəldi.

Solovyov-Kovtun atışması isə Azərbaycan və azərbaycanlılar üçün maraq kəsb etdiyindən faktın üzərində dayanmağı lazım bildik. Bəs görəsən bu həpənd Azərbaycan haqqında nə çərənləyib? Kovtun "Qarabağ Azərbaycan torpağıdır və Azərbaycana qaytarılmalıdır" cümləsini tamamlamamış Solovyov adlı erməni tulası bütün çərçivələri aşaraq, jurnalist olduğunu unudaraq, Azərbaycan və azərbaycanlıların Rusiyaya və ruslara xoş münasibətini qulaqardına vuraraq tərbiyyəsiz və cığal mövqeyini ortaya qoydu, daha doğrusu öz şovonist içini açıb studiyaya tökdü: "Qarabağ Azərbaycanındır? Ermənistan və Paşinyan Ukraynanın bu mövqeyindən xəbərdardır? Qarabağ uğrunda mübarizə aparırsan, bəs sən bilirsənmi orada nə qədər insanın qanı tökülüb? Bu, Erməni xalqının qəhrəmanlığıdır. Arsax döyüşdü və lazım olanı əldə etdi. Bu ərazidə ermənilər həmişə olub".

Budur, Rusiyanın bəzi jurnalistlərinin iç üzü, öz səfeh fikirlərini müəllifi olduğu verilişdə sağa, sola səpələməklə düz yolda olduqlarını sübut etmək. Amma əlahəzrət fakt faktlığında qalır: "Qarabağ Azərbaycan torpağıdır! Solovyov isə erməni tulası".

# "The Jakarta Post" qəzeti Ramazan ayının Azərbaycanda necə keçirilməsindən yazıb




"The Jakarta Post" qəzetinin mayın 21-də nəşr olunan buraxılışında Azərbaycanın oruclucluq adətləri mövzusunda müsahibə onlayn və çap versiyalarında dərc edilib. AZƏRTAC xəbər verir ki, qəzetin müxbirinin suallarını cavablandıran Azərbaycanın İndoneziyadakı müvəqqəti işlər vəkili Ruslan Nəsibov ölkəmizdə müqəddəs Ramazan ayında xalqımızın imsaq və iftar adətləri barədə ətraflı məlumat verib.

Müsahibədə Azərbaycan mətbəxinin zənginliyindən bəhs edilməklə yanaşı, ölkəmizin minillik tolerantlıq və multikulturalizm ənənələri barədə geniş məlumat verilib. Əhalisinin 95 faizdən çoxunu müsəlmanların təşkil etdiyi Azərbaycanda bütün dinlərə böyük hörmət bəslənildiyi, ölkədəki digər dini və etnik qrupların nümayəndələrinin birgə, sülh və əmin-amanlıq şəraitində yaşadığı qeyd edilib.

Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə multikulturalizmin dövlət siyasətinə çevrildiyi vurğulanıb. Azərbaycanın öz multikulturalizm və tolerantlıq modeli ilə dünyada nümunəyə çevrildiyi, bu məqsədlə ənənəvi olaraq təşkil edilən Mədəniyyətlərarası Dialoq Forumunun təşəbbüsçüsü və ev sahibi olduğu diqqətə çatdırılıb. Müsahibədə Azərbaycan mətbəxi nümunələrinin fotolarına da geniş yer verilib.

# Radikal müxalifət yenə antiazərbaycançı mövqe nümayiş etdirir

## *Əli Kərimli ilə İlqar Məmmədov "kimin daha yaxşı "donos" yazması" yarışına çıxıb*

*Bakıda keçiriləcək Avropa Liqasının final mərhələsinin tarixi yaxınlaşdıqca, Azərbaycana qarşı xaricdən və daxildən qarayaxma kampaniyası artır. Ən diqqətçəkən məqam odur ki, anti-Azərbaycan qüvvələr heç bir əsası olmayan, reallıqdan uzaq iddialar irəli sürür və bunu, xüsusilə, sosial şəbəkələr üzərindən tirajlamaqla Azərbaycan haqqında mənfi rəy formalaşdırmağa cəhd etməyə çalışırlar. İllər uzunu müstəqil Azərbaycana qarşı hazırlanan planlarının icrası daim fiaskoya uğrayır. İstəklərinin əksinə olaraq, Azərbaycan daha qüdrətli dövlətə çevrilir, günü-gündən inkişaf edir, təkcə mövcud olduğu regionda yox, onun hüdudlarından kənarda da, böyük nüfuz sahibi kimi çıxış edir.*



Azərbaycanın qazandığı uğurların miqyası artdıqca, anti-Azərbaycan şəbəkənin qəddi daha çox əyilir. Bundan narahat olanlar təkcə həmin şəbəkə yox, həm də müxtəlif maddi təkliflər və vədlər müqabilində Azərbaycanda "siyasi təşkilat", "hüquq müdafiəçisi" adı ilə fəaliyyət göstərib, əslində isə, bu antimilli şəbəkənin xidmətində duranlardır. Bununla belə, məlum qüvvələr hələ də tarixin ibrət dərsindən nəticə çıxarmaq istəyində deyillər. Hələ də hakimiyyətdə olduqları bir ilin eyforiyasını yaşayanlar, hələ də köhnə təfəkkürlərindən əl çəkə bilmirlər.

Atalar demişkən, "qaşınmayan yerdən qan çıxarmaq", həqiqətən də, yaramazlıqdır. Bakıda keçiriləcək Avropa Liqasının final mərhələsinin tarixi yaxınlaşdıqca dağıdıcı müxalifət Azərbaycana qarşı xaricdən və daxildən böhtanlar yağdırmaqla məşğuldur. Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev istər AXCP sədri Əli Kərimlinin, istərsə də "REAL" sədri İlqar Məmmədovun tarix boyu yaramazlıqlar etdiklərini və xarici qüvvələrə satıldıqlarını bildirib.

### Hafiz Hacıyev: "Azərbaycanda Əli Kərimli, İlqar Məmmədov, ümumiyyətlə, radikal müxalifət tarix boyu xarici qüvvələrə işləyib"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev qeyd edib ki, ölkənin inkişafını gözü götürməyən qüvvələr həmişə olub və bu gün də var: "Bundan əvvəlki dövrlərdə də olub, olacaq da. Radikal qüvvələr, deyərdim ki, radikal yox, ermənilərə işləyən satılan və satan əxlaqsız və mənəviyyatsız qüvvələrdir. Ermənilərin dəyirmanına su tökən bu satqınlar görmürlər ki, Azərbaycanda misli görünməmiş dərəcədə inkişaf gedir. Avropadakı inkişafla Azərbaycandakı inkişafı müqayisə edəndə, görürük ki, ölkəmizdə gedən inkişafın busəti Avropanın inkişafına yaxın, bəzi hallarda isə, ondan üstündür. Ancaq Ə.Kərimli, İ.Məmmədov, Leyla Yunus, Xədicə İsmayıl və "siyasi mühacir" adı ilə Avropada "söyüş söyən" biqeyrət əxlaqsız Orduxan, Vidadi və bu kimi parazitlər qranta satılan cinayətkarlardır. Azərbaycan bu gün elə bir mərhələdədir ki, o inkişafın pik həddinə çatıbdır. Bu isə, ölkə Prezidentinin fəaliyyəti və şəxsən xanımının tək fəaliyyəti nəticəsində baş verən proseslərdir. Bir-iki nazir də çox yaxından kömək etməklə, qalanları istisna təşkil edir. Amma bu gün Azərbaycanda radikal qüvvələr istəmirlər ki, ölkəmiz surətlə inkişaf etsin, ölkəmizdə əmin-amanlıq olsun. Azərbaycan dünya dövlətləri arasında öz sözünü deyib və bundan sonra da deyəcək. Bəs bunlara nə lazımdır? Bunların məqsədi aranı qarışdırmaq, hakimiyyətə gəlmək və pozuculuq fəaliyyəti göstərməkdir. Axı bunlar da fəaliyyət göstərməsələr, Avropadakı ermənilərin güclü diasporalarından pul ala bilməzlər. Cəmil Həsənlinin nə ixtiyarı var ki, onun qızını boşasınlar. Qızı erməniyə gedib. Qızının qayınatası Avropa banklarının birində çox böyük bir vəzifədədir. Ermənidir və erməni diasporasına külli miqdarda yardım edən bir insandır. Onun oğlu da C.Həsənlinin kürəkənidir. Və yaxud Kərimov Əlinin arvadı Samara getdi Londonda uşaq dünyaya gətirdi. Orada vətəndaşlıq aldı. L.Yunus kimilər erməniyə Nobel mükafatının verilməsini dəstəkləyirlər. Belə olan halda, İ.Məmmədov kimilərin yaramazlıqları bir nəticə verməyəcək".

H.Hacıyev, onu da vurğulayıb ki, istər Ə.Kərimlinin, istərsə də İ.Məmmədovun iddiaları əsl biabırçılıq və alçaqlıqdır ki, ucuz reklam xatirinə öz ölkəsindən də, "donos" yazmağa hazırdırlar: "Dünyanın diqqətinin yönəldiyi vaxt öz ölkələrini ləkələməyə çalışan Ə.Kərimli və İ.Məmmədov kimi vicdansızların bu hərəkətləri satqınçılıq və əxlaqsızlıqdır. Viktor Hüqonun gözəl bir sözü var: "Vətənini rüsvay etmək, ona xəyanət etmək deməkdir".

Bəli, xəyanətkarın ağı-qarası olmaz. Xəyanətkar, elə xəyanətkardır. Buyurun görək, "xəyanət yarışında" kim özünün mahiyyətini daha çox ortaya qoyacaq?..

**Rəfiqə HÜSEYNOVA**

# Bakcell qadınların məşğulluğunun artırılmasına dəstək göstərir



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti informasiya texnologiyaları vasitəsilə qadınların liderlik bacarığının artırılması istiqamətində layihəyə dəstək göstərir.

"Sabirabadda Qadınların Sosial İnkişafına Dəstək" İctimai Birliyi ilə birgə BMT-nin İnkişaf Proqramı çərçivəsində yaradılmış Salyan və Sabirabad Qadın Resurs Mərkəzlərində (QRM) həyata keçirilən layihənin məqsədi adıçəkilən rayonlarda qadınları İKT alətləri ilə tanış etmək, bu sahədə onların bilik və bacarıqlarını artırmaq və yeni texnologiyalar vasitəsilə qadınların liderlik bacarıqlarının inkişafına dəstək göstərməkdir. Layihə çərçivəsinə hər iki QRM-nin fəaliyyəti, qadınların uğur hekayələri və fərdi inkişafla bağlı məlumatları əks etdirən xüsusi İnternet portalı (www.azqrm.net) yaradılıb. Həmin portalda bacarıqların artırılması ilə bağlı vebinarlar yerləşdirilib. Bu portal vasitəsilə hər iki rayonun QRM üzvləri Mərkəzə gəlmədən məşğulluq və bizneslə məşğul olmaqla bağlı məlumat mübadiləsi apara biləcəklər.

Sabirabad və Salyan rayonlarında azqrm.net portalının təqdimatı, "Şəbəkələşmə" və "Məşğulluq, peşə və əlavə gəlir" mövzularında seminar keçirilib. Hər iki tədbirdə rayon mərkəzlərindən və kəndlərdən 25-ə yaxın qadın iştirak edib. Bakcell şirkəti özünün Korporativ Sosial Məsuliyyət (KSM) proqramı çərçivəsində qadın məşğulluğunun və sahibkarlıq fəaliyyətinin inkişafına dəstək verir.

# "Nar" 120-dən artıq yeni baza stansiyasını istifadəyə verib

*Ölkənin ən gənc mobil operatoru olan "Nar", yüksəkkeyfiyyətli 4G şəbəkəsini bütün ölkə ərazisində genişləndirməyə davam edir. Son 5 ayda mobil operator 20-dən artıq 3G, 95 4G texnologiyası ilə təmin olunmuş mobil baza stansiyasını istifadəyə verib. Bununla da, "Nar" 4G baza stansiyalarının sayı 1800-ü, 3G baza stansiyalarının sayı isə 2670-i ötüb.*




Qeyd edək ki, mobil operator ölkə boyu yeni baza stansiyaları quraşdırmaqla yanaşı, əvvəl quraşdırdığı baza stansiyalarını daim yeniləyir. Aparılan şəbəkə təkmilləşmə işlərinin nəticəsi olaraq, 45-dən artıq 4G baza stansiyasında avadanlıqlar yenilənib. Bundan başqa, mobil operator baza stansiyalarının şəbəkə tutumunu da genişləndirib.

Bölgələrə xüsusi diqqətlə seçilən "Nar" 4G xidmətini təkcə Bakı və Abşeron ərazisində deyil, regionlarda, şəhər və rayon mərkəzlərində də təqdim edir. Hazırda 47-dən çox bölgə mərkəzi 4G şəbəkəsi ilə təmin edilib. "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. Mobil operatorun 4G istifadəçilərinin 72%-i paytaxt Bakının, 28%-i isə regionların payına düşür.

Qeyd edək ki, "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 4G keyfiyyəti ilə yanaşı, "Nar"-ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır. Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

# "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun

***2010-cu il iyunun 22-də uzun zamandan bəri hazırlanan və beynəlxalq struktur və təşkilatların da diqqətini doğuran və təqdirini qazanan "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunun qəbul edilməsində Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın xüsusi xidmətləri olmuşdur.***

S.Abbasova yazır: "Qanunun preambulasında göstərilir ki, normativ-hüquqi aktın vəzifəsi məişət zəminində baş verən zorakılığın qarşısının alınması mexanizmlərinin yaradılması və tənzimlənməsidir. Qanunun 1-ci maddəsi əsas anlayışlara aydınlıq gətirir (normadefinisiyalar). Onların ən böyük praktiki əhəmiyyəti subyektlərin dairəsinin dəqiqləşdirilməsi və zorakılığın növlərinin açıqlanmasıdır. Məsələn, "məişət zorakılığı" anlayışı yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər, birgə yaşamaqlarından sui-istifadə etməklə, bu Qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasını güman edir. Maddədə, həmçinin, məişət zəminində fiziki, psixi, cinsi zorakılıq, eləcə də, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi kimi zorakılıq növləri ayird edilir. Ümumiyyətlə, bu qanun, yalnız qadınları deyil, digər ailə üzvlərini, o cümlədən, uşaqları, habelə, ailə ilə qohumluq əlaqələri olan digər şəxsləri fiziki, psixi, cinsi və iqtisadi xarakterli zorakılıqlardan müdafiə edir.

Sözügedən Qanunun kommentariyasını hazırlamış Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev qeyd edir ki, "məişət zorakılığı anlayışı təhlil edilərkən, onun bütün mövcud növlərini cinayət xarakterli adlandırmaq düzgün olmazdı. Ailə üzvlərinə qarşı təhlükəli zorakılığın məzmunu onun ictimai təhlükəsinin dərəcəsi və xüsusiyyətindən asılıdır. Məişət zorakılığının ictimai təhlükəlilik dərəcəsi onun hüquqa zidd olması, qabaqcadan hazırlanması, cinsi zəmində həyata keçirilməsi, şəxsiyyətin istəyinə zidd olaraq, azadlıqdan məhrum edilməsi, insanın səhhətinə ağır dərəcəli müxtəlif xəsarətlərin yetirilməsi ilə müəyyən olunur. Əməlin ictimai təhlükəlilik dərəcəsi müəyyən edildikdən sonra qanunvericilikdə onun cinayət, inzibati və ya digər sosioloji xarakterli olması göstərilə bilər."

Qanunda məişət zorakılığının qarşısının alınması sahəsində, əsas prinsiplər kimi, Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsas insan hüquq və azadlıqlarının təmin edilməsi; qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi; qanunvericiliklə müəyyən edilmiş hallar və hüdudlar istisna olunmaqla, hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi, şəxsi və ailə həyatı sirrinin qorunması məqsədi ilə konfidensiallığa riayət edilməsi; zərərçəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası; məişət zorakılığının qarşısının alınması sahəsində dövlət orqanlarının və qeyri-dövlət qurumlarının qarşılıqlı əməkdaşlığı göstərilirdi.

Məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda, həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada, cinayət tərkibinin əlamətləri olmadıqda isə, həmin şikayətə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır.

S.Abbasova yazır: "Qanunun 6-12-ci maddələri məişət zorakılığı barədə şikayətlərə baxılması qaydasına həsr edilmişdir. 7-ci maddə məişət zorakılığının qarşısının alınması tədbirləri sırasında profilaktik tədbirləri də nəzərdə tutur. Bununla məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə siyasətinin ailənin dağılmasına deyil, onun möhkəmləndirilməsi və davamlı olmasına xidmət etdiyini göstərir. Qanunun 10-cu maddəsinə uyğun olaraq, zərərçəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər. Belə bir order zərərçəkmiş şəxsi zorakılıq törətmiş şəxsdən qorumaq məqsədi daşıyır.

Qanunla məişət zorakılığının qarşısının alınması sahəsində tədbirlərin aşağıdakı növləri nəzərdə tutulmuşdur: huquqi xarakterli tədbirlər - məişət zorakılığı hallarının araşdırılması, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi; sosial xarakterli tədbirlər - zərərçəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən, müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın göstərilməsi, habelə, digər sosialyönümlü tədbirlərin həyata keçirilməsi; qabaqlayıcı tədbirlər - əhali arasında məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinin izah edilməsi, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş digər maarifləndirmə tədbirlərinin təşkili. Qanunun 14-16-cı maddələrində yuxarıda sadalanan tədbirlərin məzmun və səciyyəsi daha ətraflı açıqlanır. Qanunun mühüm özəlliklərindən biri məişət zorakılığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən məlumat bankının yaradılmasına dair müddəanın olmasıdır. Məlumat bankında baş vermiş məişət zorakılığı halları, bununla bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, aparılmış araşdırmalar və araşdırmaların nəticələri, məişət zorakılığı halları ilə əlaqədar məsuliyyətə cəlb edilmiş şəxslər, məhkəmə qərarları və digər məlumatlar toplanır. Əslində, belə bir bankın nəzərdə tutulması məişət zorakılığı halları ilə daha effektiv mübarizə aparmaq üçün əlverişli zəmin yarada bilər."

Qanunun müvafiq icra hakimiyyəti orqanları tərəfindən zərərçəkmiş şəxslər üçün dövlət yardım mərkəzlərinin təşkili haqqında 19-cu maddə, bu baxımdan, yeni təşəbbüsdür; o, fikrimizcə, bir tərəfdən zərərçəkmiş şəxslərin, o cümlədən, qadınların hüquqi və tibbi yardım almalarına və psixi reabilitasiyasına imkan verir. Digər tərəfdən isə, zorakılıq hallarını daim nəzarətdə saxlamağa, qadınların öz hüquqlarını daha yaxşı bilmələrinə və daha təsirli üsullarla müdafiə etmələrinə şərait yaradır.

Beləliklə, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun cəmiyyətimizdə hələ də mövcud patriarxal stereotip və təsəvvürlərə söykənən zərərli adətlə - məişət zorakılığı ilə mübarizədə olduqca təsirli hüquqi-normativ bazanı təşkil edir. Belə bir qanunun qəbul edilməsi dövlətimizin vətəndaşlarının, o cümlədən, qadınların ictimai hüquqlarının qorunması sahəsində ən qabaqcıl hüquqi praktikaların fəal surətdə həyata keçirilməsindən xəbər verir.

Qanunun qəbulu ilə yanaşı, onun tətbiqi ilə əlaqədar bir sıra normativ-hüquqi aktlar da qəbul edilmişdir. Nazirlər Kabineti 25 aprel 2012-ci il tarixli qərarı ilə "Məişət zorakılığından zərərçəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası"nı və "Məişət zorakılığından zərərçəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları" təsdiq etmişdir. Bundan əlavə, Nazirlər Kabineti "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması" (19 dekabr 2011-ci il), "Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülmələri və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması" (19 dekabr 2011-ci il), "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma" Qaydalarını (24 fevral 2012-ci il) təsdiq etmişdir. Bu aktların qəbulu ilə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda əksini tapmış başlıca müddəalar əməli gerçəkləşmə müstəvisinə çıxarıldı.

S.Abbasova yazır: "2011-ci il 24 noyabr tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsinin birinci cümləsində və 6.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, 7.0.8-ci, 11.1-ci maddələrində, 11.2-ci maddəsinin birinci cümləsində və 12.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları, 7.0.1-ci maddəsində, 19.1-ci maddəsinin birinci cümləsində və 19,5-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, 17.3-cü maddəsinin birinci cümləsində, 18.1-ci, 18.4-cü və 18.5-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin həyata keçirilməsi müəyyən edilirdi.

Ümumən götürüldükdə, Azərbaycanda məişət zorakılığına qarşı mübarizə sahəsində hüquqi bazanın yaradılmasından danışmaq münasibdir. Bununla yanaşı, daha çox işlərin görülməsinə ehtiyac var. Mühafizə orderinin tətbiq olunması ilə bağlı qanunda nəzərdə tutulan prosedurlar hələ də tam şəkildə həyata keçirilmir. Cinayət- Prosessual Məcəllə hələ də məişət zorakılığı qurbanlarının müdafiə olunması üçün xüsusi normalar nəzərdə tutmur. Azərbaycanda məişət zorakılığı qurbanlarının məhkəməyə çatımlılığının təmin olunmasında məhkəmələrin nə qədər böyük rol oynadığı, ATƏT-in məişət zorakılığına dair cinayət işləri üzrə müşahidəsində öz əksini tapmışdır."

Qanunun qəbulundan sonra zorakılığa qarşı mübarizə daha sistemli xarakter almışdır. 2011-ci ilin fevral-mart ayları ərzində, AQUPDK "Üçüncü sektor" İctimai Birliyi ilə birlikdə Goranboy rayonu, Naftalan və Gəncə şəhərlərində məişət zorakılığı haqqında qanunun işləmə mexanizmlərinin müzakirəsi və təhsildə gender stereotiplərinin aradan qaldırılması məqsədilə QHT-lər, təhsil işçiləri və yerli bələdiyyələrdə çalışan müavin qadınlar üçün seminarlar təşkil etmişdir. İl ərzində komitə, həmçinin, ATƏT-in Bakı Ofisi ilə birgə regionlarda "Məişət zorakılığının qarşısının alınması və profilaktikasında icmaların rolu" mövzusunda silsilə dəyirmi masalar, "Nikah hüquqları" mövzusunda seminarlar keçirmişdir.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 23 may




# YAP Sabirabad rayon təşkilatının gənclər birliyinin IV konfransı keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Sabirabad rayon təşkilatı gənclər birliyinin IV konfransı keçirilib. Tədbir iştirakçıları, ilk öncə, Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə tər çiçəklər düzüblər. Konfransda giriş sözü ilə çıxış edən YAP Sabirabad rayon təşkilatının sədri Məleykə Ağayeva Yeni Azərbaycan Partiyasının cəmiyyətin aparıcı siyasi qüvvəsi olduğunu bildirib. YAP Sabirabad rayon təşkilatı gənclər birliyinin sədri Hacıəli İsmayılov isə tədbirdə hesabat məruzəsi ilə çıxış edib.***

Qeyd olunub ki, rayon təşkilatının gənclər birliyi hesabat dövrü ərzində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb. Daha sonra hesabat məruzəsi ətrafında fəal gənclər Varis Rüstəmov, Səbinə Qarayeva və Toğrul Kərimili çıxış ediblər. Sonra konfransda rayon Ağsaqqallar Şurasının sədri Böyükağa Həmidov, Milli Məclisin deputatları Rüstəm Xəlilov, Elçin Quliyev və Sabirabad rayon icra hakimiyyətinin başçısı Siraqəddin Cabbarov çıxış edərək, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin əhəmiyyətini vurğulayıblar. Tədbirdə, həmçinin, təşkilati məsələlərə baxılıb. YAP Sabirabad rayon təşkilatı gənclər birliyinin şura və idarə heyətinin üzvləri seçilib. Varis Rüstəm oğlu Rüstəmov YAP Sabirabad rayon təşkilatı gənclər birliyinin sədri seçilib. Eyni zamanda, rayon təşkilatı gənclər birliyinin sədr müavinləri və Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin V Konfransına 2 nəfər nümayəndə seçilib. Sonda Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə müraciət qəbul olunub.

***Rövşən***

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix-coğrafiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Fərzəliyeva Ləman Yaqub qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

# “Gənclərin Dayanıqlı İnkişaf Məqsədləri”

## *Layihənin növbəti dayaq nöqtəsi Gəncə olub*






***Dünən Yeni Azərbaycan Partiyasının və Gəncə şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə Gəncə şəhər Heydər Əliyev Mərkəzində “Gənclərin Dayanıqlı İnkişaf Məqsədləri” mövzusunda konfrans keçirilib. BMT-nin elan etdiyi 17 Dayanıqlı İnkişaf Məqsədinin təmin olunması istiqamətində görülən işlərə töhfə vermək məqsədi daşıyan konfransın iştirakçıları əvvəlcə müasir müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzərək, Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.***

Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə öz işinə başlayıb. Gəncə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov BMT-nin 2016-2030-cu illər üçün təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədləri təşəbbüsünə fəal qoşulan müstəqil ölkəmizin qarşıya qoyulmuş məqsəd və hədəflərin dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektləri istiqamətində apardığı işlərin əhəmiyyətindən danışıb. Qlobal problemlərə toxunan Niyazi Bayramov Azərbaycanın inkişafın dayanıqlılığının təmin olunması istiqamətində işlərə 2000-ci ildə Minilliyin İnkişaf Məqsədlərinə qoşulmaqla başladığını qeyd edib.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək, Dünya Bankı tərəfindən hazırlanan “Doing Business 2019” hesabatında Azərbaycanın 190 ölkə arasında 32 pillə irəliləyərək, 57-ci pillədən 25-ci yerə yüksəldiyini diqqətə çatdırıb: “Dünya Bankı kimi nüfuzlu bir qurumun hesabatında yüksək pilləyə qalxmağımız, uğurlarımız Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsizliyini və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, mənafelərini əks etdirdiyini bir daha göstərir”.

Konfrans işini 2 paneldə davam etdirib. YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Gənclər Birliyini sədr müavini Ramin Məmmədov, Ədliyyə Nazirliyinin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Aynur Sabitova, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbərinin müavini Dinara Abbas, Azərbaycan Respublikasının Dayanaqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov, Kənd Təsərrüfatı yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Namiq Məmmədov, Azərbaycan Respublikasının Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova panellərdə çıxış edərək, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində Azərbaycanda görülmüş işlər barədə iştirakçılara ətraflı məlumat veriblər. Konfransda qeyd olunan məsələlərlə bağlı ətraflı müzakirələr aparılıb və gənclərin sualları plenar üzvlər tərəfindən ətraflı cavablandırılrb. Dayanıqlı İnkişaf Məqsədlərindən bəhs edən videoçarx nümayiş olunub. Eyni zamanda, tədbirdə fəal gənclərə Fəxri Fərmanlar təqdim edilib.

***Rövşən***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**